# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 17 (3433) Cümə axşamı / 5-11 may 2022-ci il Qiyməti 40 qəpik


# Özəl məktəblər təhsil haqqını qaldırdı

**Dünəndən etibarən 2022-2023-cü tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start verilib. Ümumi təhsil müəssisələrinin I siniflərinə qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılacaq. Birinci sinfə qəbulla bağlı elektron qeydiyyat prosesi 14 sentyabr 2022-ci il tarixdə başa çatacaq. Xatırladaq ki, ötən il ümumtəhsil məktəblərinin I sinfinə 165 511 şagird qəbul olunub. Bu il də birinci sinfə160 mindən çox şagirdin qəbul olunacağı proqnoz edilir.**

**Qeyd edək ki, ümumorta təhsil 6 yaşdan etibarən uşaqlar üçün məcburidir. Şagirdlər dövlət təhsili müəssisələrində və özəl məktəblərdə tədris prosesinə cəlb olunurlar. Özəl məktəblərdə müəyyən məbləğdə təhsil haqı tətbiq olunsa da, şagirdlər dövlət məktəblərində ödənişsiz formada təhsil almaq imkanı əldə edirlər.**

**Bəzən valideynlər övladlarının daha keyfiyyətli təhsil alması üçün özəl məktəblərə üz tuturlar. Məktəblərdə nəqliyyat xidməti, qidalanma, dərsdən sonra əlavə dərnək və məşğələlər, əlavə olaraq 2-3 xarici dilin öyrədilməsi və ya tədrisin yalnız xarici dildə aparılması əsas fərqlilikdir.**




*Bu il, təxminən, 1 100 nəfər şagirdin özəl orta məktəblərdə təhsil alması proqnozlaşdırılır*

Nəqliyyat xərcləri, məktəbli forması, dərs vəsaitləri, bəzi hallarda qidalanma və s. xərclər təhsil haqqına daxil deyil. Qiymətlər təhsil pilləsindən asılı olaraq (ibtidai, orta və tam orta təhsil) fərqlənir. Bundan əlavə, qiymətlər Azərbaycan, rus və ingilis dilli qruplara görə dəyişir. Azərbaycan bölməsinə nisbətən xarici bölmələrdə illik təhsil haqları yüksəkdir. İngilis bölməsində isə qiymət daha bahadır. Bəzi məktəblərdə tədris yalnız ingilis dilində aparılır. Fərq yalnız yerli ingilisdilli və xarici müəllimlərdədir. Xarici müəllimlərin tədrisi yerli ingilisdilli müəllimlərə nisbətən baha olur. Dərslərdən sonra şagirdlər ev tapşırığını, daha sonra isə əlavə məşğələlərlə vaxtlarını səmərəli keçirirlər. Siniflərdə şagird sayının az olması tədrisin keyfiyyətinə təsir edən başlıca amillərdəndir. Bəzi məktəblərdə mütəmadi imtahanlar keçirilir. Nəticəsi yüksək olanlara 10-15 faiz endirim də tətbiq olunur. Eyni zamanda, əgər məktəbə bir ailədən 2 və daha çox uşaq gedərsə, təhsil haqqında endirim olur.

## Ölkədə 50 özəl məktəb var

■ **Mövzu ilə bağlı hafta.az-a danışan təhsil eksperti Kamran Əsədov deyir ki, özəl təhsil müəssisələri təhsil haqlarını müəyyənləşdirməkdə müstəqildir: "Amma təbii ki, bu qiymətlər reallıqdan kənar olmamalıdır.** Qeyd edim ki, xidmət haqları müəyyən edilərkən müəssisənin xərcləri, yəni göstərdiyi xidmətlərin müqabilindəki xərcləri hesablanaraq bu qiymətlər təşkil edilir. "Orta ümumi məktəblərin nümunəvi nizamnaməsi"nə əsasən, özəl liseylər mütləq şəkildə dövlət nümunəli tədris verməlidirlər və qanunvericilikdə nəzərdə tutulur ki, bununla yanaşı, onlar əlavə xidmətlər göstərə bilərlər. Bilirik ki, özəl liseylər və orta ümumi təhsil müəssisələri dövlətin müəyyənləşdirdiyi tədrislə bərabər eyni zamanda müəyyən xidmətlər də göstərir. Bura daxildir nəqliyyat servisi xidməti, qidalanma, forma, kitabxanalardan istifadə və s. Bundan başqa, özəl liseylər və orta məktəblər müəyyən qanunvericilikdə nəzərdə tutulmayan xarici dilləri də tədris edirlər. Yəni mövcud qanunvericiliyə görə, yalnız rus, ingilis və digər qanunda nəzərdə tutulmuş xarici dillər tədris oluna bilər. Lakin məsələn, bu cür liseylərdə ispan və digər dillər keçirilir. Bundan əlavə, özəl liseylər var ki, rəqs, intellektual oyunlar və digər bacarıqları özündə əks etdirən xidmətlər göstərirlər. Amma təhsil sahəsi elə bir sahədir ki, burada kommersiya maraqları təhsili öz çənginə almamalıdır. Burada bir çox hallarda əsassız qazanc da ortaya çıxır. Əlbəttə, kommersiya maraqlarına hörmətlə yanaşmaq hər kəsin borcudur. Lakin hesab edirəm ki, təhsilin əlçatanlığını təmin etmək üçün orta həddə qiymət müəyyənləşdirilməlidir".

## Qiymət artımı 500-3000 manat arası dəyişir

Əslində, Azərbaycanda fəaliyyət göstərən özəl orta məktəblərdə təhsil haqqı heç də ucuz deyil. Yeni tədris ilindən bəzi özəl orta məktəblər illik təhsil haqqı məbləğində artım etməyə hazırlaşırlar. Bəzi məktəblərdə artım 500-800manat, bəzilərində 1000-1500 manat, digərlərində 2000-3000 manat nəzərdə tutulub. Görəsən, bu məktəblər təhsil haqları nə qədərdir? Nəzərdə tutulan qiymət artımına səbəb nədir? Ümumiyyətlə, özəl orta məktəblərdə birinci sinifə ildə neçə şagird qəbul edilir? Apardığımız araşdırmanın nəticəsi olaraq əvvəlcə Bakıda fəaliyyət göstərən özəl orta məktəblərin qiymətlərinin siyahısını təqdim edir:

**1. Azərbaycan Beynəlxalq Məktəbi** ("TISA International School of Azerbaijan") 1-dən 9-cu sinfədək isə təhsil haqqı illik olaraq 34 min ABŞ dolları (təxminən 57 min 800 manat).
**2. Baku Oxford School tam orta ümumtəhsil məktəbi** illik təhsil haqqı 1-5 siniflər üzrə 16 000 manatdır. (ötən tədris ilində 15 500 manat olub).
**3. ABC - Azərbaijan British College**
İbtidai təhsil- 15 400 AZN.
**4. Müasir Təhsil Kompleksi**
Azərbaycan bölməsi - 12 000 AZN.
Xarici bölmə - 16 000 AZN.
**5. "XXI Əsr" Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi**
Azərbaycan bölməsi - 8000 AZN.
Rus bölməsi - 10 000 AZN.
İngilis dili - 12 000 AZN.
**6.Sabis Sun İnternational School**
İbtidai təhsil - 11970 AZN (ötən il 11 500 manat olub).
**7. Avropa Azərbaycan Məktəbi**
1-4-cü siniflər- 10400 AZN (ötən il 9950 manat olub).
**8. Xəzər Universitetinin "Dünya məktəbi"**
Azərbaycan, rus bölmələri üçün.
1-9-cu siniflər - 7500 AZN
İngilis dili bölməsi üçün
1-4-cü siniflər - 9500 AZN
**9. Oxbridge Academy**
1-6 sinif - 6 500 USD
**10. Hədəf liseyi**
Azərbaycan bölməsi 1-4-cü siniflər - 7500AZN
Rus bölməsi - 8000 AZN
İngilis bölməsi üzrə - 8500 AZN
Onu da qeyd edək ki, bəzi məktəblərin filiallarında ünvandan asılı olaraq qiymətlər fərqli ola bilər.

*Ölkədə özəl təhsil müəssisələrinin sayı çox olmadığından, rəqabət səviyyəsi aşağıdır*

K.Əsədov onu da qeyd edib ki, hazırda ölkədə 50 özəl orta məktəb fəaliyyət göstərir: "Təbii ki, Azərbaycanın orta aylıq əmək haqqı ilə özəl məktəblərin müəyyənləşdirdiyi qiymətlər uyğun deyil. Lakin biz onları yüksək qiymətlərə görə günahlandıra bilmərik. Amma o da etiraf olunmalıdır ki, bu məktəblərin sayı ilbəil artır. Deməli, tələbat var ki, say da artır. Müşahidələr göstərir ki, hər il özəl orta məktəblərə müraciətlərin sayında artım müşahidə edilir. Bu il təxminən 1100 nəfər şagirdin özəl orta məktəblərdə təhsil alması proqnozlaşdırılır. Hazırda isə ən ciddi məsələ eyni xidmət göstərən məktəblərin fərqli qiymətlər ortaya qoymasıdır. Azərbaycanda illik təhsil haqqı ən ucuz olan özəl orta məktəbdə qiymət 6 min manatdır. Ən bahalısı isə 50-60 min manata qədər olan özəl liseylər var.

Lakin bu özəl məktəblərdə tədrisin keyfiyyətini biz hər hansı mexanizmlə yoxlayıb ölçə bilmirik. Biz ekspertlər buraxılış və qəbul imtahanlarının nəticələrini təhlil edəndə görürük ki, həmin məktəblərin nəticələri heç də regiondakı məktəblərin nəticələrindən üstün deyil. Hətta bəzi bölgə məktəblərinin göstəriciləri onlardan daha yuxarıdır. Burada digər üstün tərəflərdən biri özəl liseylərin beynəlxalq imtahanları ilə bağlıdır. Yəni, bu məktəblərin məzunların həqiqətən də beynəlxalq imtahanlarda çox yüksək nəticələr göstərirlər".

Ekspertin sözlərinə görə, bu sahədə də qiymət artımı qaçılmazdır: "Əgər yeni tədris ilindən bəzi özəl orta məktəblər illik təhsil haqqı məbləğində artım etməyə hazırlaşırlarsa, bu mövcud iqtisadi vəziyyətlə bağlıdır. Çünki ölkədə ötən ilin sonuna yaxın enerji daşıyıcılarının qiyməti bahalaşıb. Eyni zamanda, inflyasiya ikirəqəmli səviyyədədir. ▸▸ Səh. 4

MÜSAHİB

## Prezidentin şəhid ailələri ilə görüşü bizə stimul verir



**Sevinc Alızadə,**
"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

***Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak etdilər. Ramazan Bayramı günündə doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət yeni yaşayış kompleksi şəhid ailələrinə təqdim olundu. Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib.***

*Prezidentin hər çıxışında şəhid adının, Şəhidlik zirvəsinin aliliyini, müqəddəsliyini daim vurğulaması özü cəmiyyətimizə bir mesajdır*

▸▸ Səh. 3

MÜZAKİRƏ



## Yeni "ittifaq" ssenarisi

■ Türkiyə ilə müttəfiqlik və Azərbaycana qarşı yeganə təsir vasitəsi olan Qarabağ kartının tədricən Rusiyanın əlindən alınması onların reallıqla barışmağa məcbur olacağını deməyə əsas verir

■ Bu gün Azərbaycan kimi dövlətləri asanlıqla ram etmək, hansısa ittifaq çərçivəsinə salmaq olmaz

■ Rusiyanın Ukraynanı tam olaraq ələ keçirib öz siyasətinə tabe etdirməsi mümkün deyil ▸▸ Səh. 5

GÜNÜN FOTOSU...



Qarabağın çempionluq sevinci

GÜNÜN SİTATI

"Cəbrayılda, Suqovuşanda, Zəngilanda yeni məktəblər tikiləcək. Azad olunmuş ərazilərimiz zəng səsinə qovuşacaq"



**Emin Əmrullayev,**
təhsil naziri

KARİKATURA




Kirayə ev problemi

## Xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir

**Naibə Haciyeva,**
Alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri

Ölkəmizin, xalqımızın tarixini, mədəniyyətini, siyasətini təbliğ etmək üçün var gücümüzlə çalışacağıq. ▸▸ Səh. 5

STATİSTİKA



■ **Hazırda Azərbaycanda 4 400 ümumtəhsil müəssisəsi var. 1970-ci illərdə bu rəqəm 765 olub və 70-ci illərin sonuna qədər 2117-yə çatıb.**

Həmçinin ali təhsil alanların sayı 70 mindən 100 minə çatıb. Hazırda 200 mindən artıq tələbə müxtəlif təhsil pillələrində təhsil alır. Təxminən yarısı ödənişli əsaslarla oxuyur. Bu il 400 tələbə Dövlət Neft Fondunun hesabına dünyanın müxtəlif ali təhsil müəssisələrində təhsil almaq imkanı əldə edəcək.



▸▸ Səh. 6

## Ərzaq təhlükəsizliyimiz necə təmin edilir?

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Vilayət Quliyevlə bağlı Sərəncam imzalayıb.**

Sərəncamla Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Qeyd edək ki, V. Quliyev ötən ilin iyulunda Prezidentin Sərəncamı ilə Azərbaycanın Macarıstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

***

**Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Vahid Rasim oğlu Hacıyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.

***

**Dövlət ərzaq ehtiyatları dövlət və səfərbərlik ehtiyatlarının tərkib hissəsi olacaq.** Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Yeyinti məhsulları haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. İndiyə qədər qüvvədə olan qanuna əsasən, dövlət ərzaq ehtiyatları dövlət material ehtiyatlarının tərkib hissəsi olub.

# Cəbrayıl, Suqovuşan, Zəngilanda yeni məktəblər tikiləcək



**"Qarabağ zəfəri Azərbaycan təhsili üçün də yeni bir səhifə açıb". Bunu təhsil naziri Emin Əmrullayev Heydər Əliyevin 99-cu ildönümü ilə əlaqədar şagirdlər arasında keçirilmiş "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin təltif olunma mərasimində deyib.**

Onun sözlərinə görə, Azərbaycan məktəbi bu gün zəfər çalmış ölkənin məktəbidir: "Bu gün təhsilimizin qarşısında bir sıra ümdə məsələlər durur. Şuşada və

Ağdamda məktəblər tikilir. Sevindirici haldır ki, ən birinci tikilən binalar elə məktəb binaları olub. O cümlədən Cəbrayılda, Suqovuşanda, Zəngilanda yeni məktəblər tikiləcək. Azad olunmuş ərazilərimiz zəng səsinə qovuşacaq".

# Üç azərbaycanlı uşaq Ukraynadan ölkəmizə gətirilib

***Ukraynanın Xarkov şəhərində həlak olmuş Azərbaycan Respublikasının vətəndaşı Mahmudov Emin Zabit oğlu və onun həyat yoldaşı Ukrayna vətəndaşı Mahmudova Lyudmilanın yetkinlik yaşına çatmayan 3 övladı - 26.04.2007-ci il təvəllüdlü Mahmudova Renata Eminovna, 04.11.2010-cu il təvəllüdlü Mahmudov David Eminoviç və 10.12.2017-ci il təvəllüdlü Mahmudova Dayana Eminovna cari ilin 5 may tarixində Azərbaycana təxliyə ediliblər.***

Xarici İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, Azərbaycan Respublikası vətəndaşı olan uşaqlar valideynləri həlak olduqdan sonra tanışları tərəfindən Rusiya Federasiyası ərazisinə keçiriliblər. Uşaqların Azərbaycan Respublikasına repatriasiya edilməsi üçün Azərbaycan Respublikasının dövlət qurumları tərəfindən əlaqələndirilmiş qaydada bir sıra zəruri tədbirlər, o cümlədən uşaqların vətəndaşlıq mənsubiyyətinin müəyyən edilməsi və qəyyumun təyin edilməsi həyata keçirilib.

Daha sonra, məsələ ilə bağlı Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyi tərəfindən lazımi hüquqi yardım göstərilib, uşaqların ölkəmizə gəlmələri üçün onlar qayıdış şəhadətnamələri rəsmiləşdirilib və Azərbaycana gətirilmələri üçün addımlar atılıb.

Məlumat üçün bildirmək istərdik ki, Azərbaycan Respublikasının Hökumətinin dəstəyi ilə uşaqlara lazımi hüquqi, tibbi, sosial və psixoloji yardım göstəriləcək və qəyyum ailəyə verildikdən sonra sosial-reabilitasiya işi davam etdiriləcək.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Zəngəzur dəhlizi, artıq reallıqdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda çıxış edib. Dövlət başçısı bildirib ki, Zəngilan rayonu azad edilmiş digər rayonlarımız kimi böyük dağıntılara məruz qalmışdır. Ermənistan işğalçı qüvvələri Zəngilan rayonunu demək olar ki, yerlə-yeksan etmişlər.**



## Gündəm

Zəngilan şəhərində cəmi 1-2 salamat bina qalıb, o binalardan da Ermənistan işğalçıları - hərbçilər istifadə edirdilər. Bir dənə də salamat kənd qalmayıb, Zəngilanın bütün kəndləri yerlə-yeksan edilib. Bu, bir daha erməni vandalizminin eybəcər sifətini bütün dünyaya göstərir, bir də onu göstərir ki, Azərbaycan xalqı və Azərbaycan Ordusu bölgəmizi böyük bəladan - erməni faşizmindən xilas etmişdir.

### Bütün tarixi-dini abidələrimiz dağıdılıb

**Prezidentin sözlərinə görə, Zəngilan rayonunda, eyni zamanda, bütün tarixi-dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Biz artıq tarixi-dini abidələrimizin bərpası işinə başlamışıq:**

"Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Zəngilan şəhər məscidi indi əsaslı şəkildə təmir olunur, faktiki olaraq yenidən qurulur. Çünki bu məsciddən cəmi bir divar qalmışdı. Yəni, Zəngilanda mövcud olan acı mənzərə azad edilmiş bütün başqa torpaqlarda da mövcuddur.

Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Bildiyiniz kimi, birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir. Ağalı kəndi faktiki olaraq yenidən qurulur, böyük və rahat kənd olacaq. Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Biz azad edilmiş torpaqları necə görmək istəyirik? Biz insanlara, oraya qayıdacaq insanlara hansı şəraiti yaratmaq istəyirik? Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf".

### Böyük infrastruktur layihələri

**Dövlət başçısı bildirib ki, hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir:**

"Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturunu mən qeyd etmək istərdim. Bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcəkdir. Əminəm ki, bu hava limanının çox böyük funksiyaları olacaqdır. Çünki biz Zəngilanı gələcəkdə beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi görürük. Rayonun yerləşməsi, beynəlxalq bazarlara yaxın olması və digər amillər bunu təmin edəcək. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci hava limanının məhz Zəngilanda yaradılması əlbəttə ki, coğrafi vəziyyəti nəzərdə tutur, buna əsaslanır, eyni zamanda, bizim həm iqtisadi, nəqliyyat, həm də təhlükəsizliklə bağlı məsələlərimizi həll etmək üçün vacib vasitə olacaqdır. Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq. Ona görə və eyni zamanda, keçmiş məcburi köçkünlərin rahatlığı üçün biz dörd və altı zolaqdan ibarət olan avtomobil yolunu sürətlə inşa edirik. Bu yolun hissə-hissə istifadəyə verilməsi gələn ildən başlayacaq.

Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, işğal dövründə Ermənistan rəhbərliyi Ermənistandan Cəbrayıla yol çəkmək istəyirdi. Həmin bu yol təbii ki, Zəngilandan keçməli idi. Onların bu ümidləri və ümumiyyətlə, bütün ümidləri gözlərində qaldı. Bildiyimə görə, birzolaqlı kənd tipli bir yol çəkmək fikrində idilər. Biz isə Horadizdən Zəngilana dörd və altızolaqlı magistral avtomobil yolu çəkirik. Eyni zamanda, mövcud yol, yəni, sovet vaxtından qalan yol, hansı ki, indi biz ondan istifadə edirik, o da əsaslı şəkildə təmir olunacaq. Yəni, yeni çəkilən yol tam yeni və daha əlverişli marşrutla keçir və yolboyunca yol infrastrukturu həm məsafə baxımından daha əlverişli olacaq, həm də əlbəttə, vətəndaşlar bu yolla rahat gedib-gələcəklər və beynəlxalq yükdaşıma məsələləri öz həllini tapacaqdır.

Bununla yanaşı, Zəngilandan Qubadlıya və Qubadlıdan Laçına bir çox zolaqdan ibarət yol çəkilir. Bu da Şərqi Zəngəzur iqtisadi rayonundakı rayonlar arasında birləşməni təmin edəcəkdir. Dəmir yoluna gəldikdə, hazırda bizim sonuncu dəmir yolu infrastrukturu olan bu istiqamətdə stansiyamız Horadizdir. Horadizdən Ağbəndə gedən dəmir yolunun inşası artıq sürətlə aparılır və əminəm ki, gələn il tam istismara veriləcəkdir. Bu da həm vətəndaşlar üçün,

> *Bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcək*
>
> *Azad edilmiş ərazilərdə birinci aqropark Zəngilan rayonunda yaradılır*
>
> *Biz beynəlxalq məhkəmələrə də müraciət etməyə əzmindəyik, hazırlıq işləri gedir*

həm də beynəlxalq yükgöndərənlər üçün çox əlverişli bir infrastruktur olacaqdır.

Biz həm Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcəyik, tam yeni nəqliyyat dəhlizi açılacaq. Nəzərə alsaq ki, son vaxtlar Azərbaycana Xəzər dənizinin Şərq hissəsindən çoxlu müraciətlər daxil olub. Azərbaycan ərazisindən yük göndərmək istəyənlərin həm sayı, həm də yüklərin həcmi artır, əlbəttə, Zəngəzur dəhlizi bizim üçün və qonşu dövlətlər üçün əlavə imkanlar yaradacaq.

Biz son illər ərzində, deyə bilərəm ki, təqribən 10-15 il ərzində nəqliyyat sektoruna çox böyük əhəmiyyət vermişik. Məhz buna görə bu gün istənilən yükü qəbul edə və onu tranzit kimi ötürə bilərik, bunu edirik və bizim imkanlarımız daha da artacaq".

### Məşğulluq problemi

**Dövlət başçısı vurğulayıb ki, digər vacib məsələ məşğulluqla bağlıdır. Ağalı kəndində bu məsələ nəzərdə tutulub. Bu il orada yeni müəssisələrin yaradılması nəzərdə tutulur:**

"Mən göstəriş vermişdim ki, keçmiş məcburi köçkünlər Ağalı kəndinə qayıdan zaman artıq orada işlə məşğul olmaq üçün imkan olsun - həm kənd təsərrüfatında, həm də dövlət və özəl şirkətlər tərəfindən yaradılmış müəssisələrdə insanlar çalışacaqlar. Azad edilmiş torpaqlarda bizim kənd təsərrüfatı ilə bağlı çox böyük planlarımız var. İndi hər kəs yaxşı görür və bilir ki, ərzaq təhlükəsizliyi ön plana çıxır. Son illərdə bu istiqamətdə bir çox işlər görülüb. Ancaq hələ ki, biz özümüzü tam şəkildə, yəni, 100 faiz ərzaqlıq buğda ilə və bütövlükdə taxılla təmin edə bilmirik. Əminəm ki, görüləcək əlavə tədbirlər nəticəsində idxaldan asılılıq böyük dərəcədə azalacaq. Burada əsas məsələ həm məhsuldarlıq, sudan düzgün istifadə edilməsi, eyni zamanda, azad olunmuş torpaqlarda əkin yerlərinin düzgün seçilməsi və orada aqrotexniki xidmətin göstərilməsidir.

Azad edilmiş ərazilərin təbii iqlimi və coğrafiyası elədir ki, orada həm heyvandarlıqla çox genişmiqyaslı məşğul olmaq olar, xüsusilə Laçın, Kəlbəcər, o cümlədən Qubadlı, Zəngilan rayonlarında, həm də əkinçiliklə daha çox Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl və eyni zamanda, Zəngilan, Qubadlı rayonlarında. Azad edilmiş ərazilərdə birinci aqropark məhz yenə də Zəngilan rayonunda yaradılır. Keçən il mən qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti ilə birlikdə "DOST Aqropark" adlandırılan aqroparkın təməlini qoyduq. Bu yaxınlarda aqroparkın fəaliyyəti ilə bağlı mənə məlumat verildi. Çox şadam ki, hər şey plan üzrə gedir. Bu, birinci, nümunəvi bir aqropark olacaq. Əminəm ki, azad edilmiş torpaqlarda aqroparkların sayı çox olacaq. Necə ki, indi sənaye zonaları yaradılır həm Cəbrayıl rayonunda, həm Ağdam rayonunda.

Hesab edirəm ki, Zəngilan rayonunda əsas məşğulluq və iqtisadiyyatın əsas hissələrindən biri də kənd təsərrüfatı olmalıdır. Çünki təbii iqlim çox əlverişlidir və yenə də "DOST Aqropark"ın timsalında biz azad edilmiş bütün torpaqlarda gələcəkdə yaradılacaq mənzərəni görməliyik".

### Bərpa prosesi

**Prezident bildirib ki, azad edilmiş hər bir rayonda kəndlərin bərpası ilə bağlı işlərə artıq start verilmişdir:**

"Bu haqda bu yaxınlarda ictimaiyyətə məlumat verilmişdir. Biz kəndləri də planlı şəkildə bərpa edəcəyik. Biz bu prosesi də mərhələlərə böldük. Birinci mərhələdə hansı kəndlər qurulacaq, ikinci mərhələdə və sair. Əlbəttə, kəndlərin qurulması da planlı şəkildə aparılmalıdır. Yəni, kortəbii yox, sistemli şəkildə. Ona görə hər bir yeni yaradılacaq, bərpa ediləcək kəndin baş planı olmalıdır və baş planlar hazırda hazırlanır. Necə ki, şəhərlərin baş planları, o cümlədən Zəngilan şəhərinin, eləcə də kəndlərin baş planları hazırlanacaq. Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq. Ona görə hər şey şəffaf, tenderlər və baş planlar əsasında yaradılacaqdır. Ona görə azad edilmiş bütün rayonlarda, o cümlədən Zəngilan rayonunda da bu işlərə artıq hazırlıq gedir.

### Ekoloji terror

**Prezident daha sonra bildirib ki, Ermənistan işğal dövründə işğal altında olan torpaqların ekologiyasına da böyük zərər vurmuşdur və mən həmin rəqəmləri səsləndirmişdim:**

"Əlli-altmış min hektar meşə ilə örtülü sahə tamamilə məhv edilmişdir. Biz bunu peyk vasitəsilə müşahidə edirdik. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında meşələrin kütləvi surətdə qırılması prosesi gedirdi. Yəni, bu, faktiki olaraq vəhşilik və talançılıqdır. Ermənistanın işğal dövründə çirkin əməllərini təsvir etmək üçün, hesab edirəm ki, bu iki ifadə ön planda olmalıdır - vəhşilik və talançılıq. Zəngilanda da bu mənfur işlər görülmüşdür və bunun nəticəsində təbiətə çox böyük ziyan vurulmuşdur.

Hər kəs yaxşı bilir ki, Avropada ərazisinə görə ikinci ən böyük çinar meşəsi Zəngilan rayonunda olub - Bəsitçay təbiət qoruğu. O Bəsitçay təbiət qoruğunun böyük hissəsi məhv edilib və mən Zəngilanda olarkən o kəsilmiş ağacların kötüklərini görmüşəm və eyni zamanda, yandırılmış ağacları da görmüşəm. Eyni çirkin əməlləri onlar Kəlbəcər və Laçın rayonlarında müharibədən dərhal sonra etmişdilər. Onlara möhlət verilmişdi o ərazilərdən çıxmaq üçün, iyirmi gün vaxt verilmişdi. O günləri onlar yenə də bəd əməllər üçün istifadə etmişdilər. Onlara məxsus olmayan, azərbaycanlıların tikdirdikləri və onların qanunsuz yaşadıqları evləri məhv etmiş, yandırmış, ağacları kəsmiş, yandırmışlar.

Bütün əşyaları ya məhv etmiş, ya da ki, söküb aparmışlar. Bu biabırçı kadrlar xarici kanallar vasitəsilə də görüntüləndi və hər kəs görə bildi ki, onlar hansı əşyaları özləri üçün əziz bilib tələm-tələsik çıxartmağa nail olmuşdular. Amma, eyni zamanda, ağacları kəsib yandırmışdılar. Biz Bəsitçay təbiət qoruğunun bərpasına başladıq. Mən tarixi Zəfərdən sonra ilk dəfə Zəngilanda olanda orada ağaclar əkmişəm. Göstəriş verilib və təbii ki, biz Bəsitçay təbiət qoruğunu bərpa edəcəyik. Amma, buna, əlbəttə ki, çox vaxt lazım olacaq".

### Bir cinayət də cavabsız qalmayacaq

**Dövlət başçısının sözlərinə görə, Ermənistan Zəngilandakı və digər rayonlardakı qızıl və digər qiymətli metallar yataqlarını da vəhşicəsinə istismar etmişdir. Zəngilanda Vejnəli qızıl yatağını vəhşicəsinə istismar etmişdir. Oranı da ekoloji fəlakət zonasına çevirmişdir və qanunsuz olaraq orada çıxarılan qızıl xaricə aparılıb satılmışdır:**

"Biz indi bütün hüquqi prosedurlara start vermişik. Mən bu haqda Azərbaycan ictimaiyyətini məlumatlandırmışdım. Bir cinayət də cavabsız qalmayacaq. Birincisi, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki, o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu, sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir. Həmçinin Vejnəli qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər.

Eyni zamanda, təbii fəlakət zonaları arasında yenə də Zəngilanın ərazisindən keçən Oxçuçay çayının taleyini biz əfsuslar olsun ki, ürək ağrısı ilə dilə gətiririk. Oxçuçay da Ermənistanın ekoloji terroruna məruz qalmışdır. Əfsuslar olsun ki, bir xarici şirkət də bu ekoloji terrorun ermənilərlə birlikdə müəllifi olmuşdur. Oxçuçayın sarı rəngə boyanması artıq mətbuatda dəfələrlə dərc edilib, həm foto, həm videogörüntülər var. Yəni, Ermənistanda istismar edilən mis kombinatının bütün axıntıları Oxçuçaya təmizlənmədən ötürülürdü. Bu, cinayətdir, bu, ekoloji terrordur. Bunu kim edib? Ermənistanın keçmiş rəhbərliyi. Çünki həmin o mis kombinatının səhmdarları Ermənistanın keçmiş rəhbərliyinə yaxın olan və qohumluq əlaqələri olan adamlardır. Biz bilirik ki, bu mis kombinatının işlənilməsi korrupsiya sxemləri əsasında olub. Təəssüf ki, beynəlxalq auditə subyekt olan xarici şirkət də bu korrupsiya əməllərində iştirak edib.

Ermənistan rəhbərliyinə gəldikdə, onların hər bir addımı, hər bir hərəkəti biabırçılıq olub. Amma beynəlxalq auditlə işləyən beynəlxalq şirkət bu çirkin əməllərə əl atırsa, burada həmin o şirkətin yerləşdiyi ölkələrin hüquq-mühafizə orqanlarının işi olmalıdır. Biz bir neçə dəfə o şirkətin adını çəkmişik, bu gün də çəkə bilərəm: "Cronimet" şirkəti. Nə üçün bu günə qədər reaksiya verilmir? Nə üçün Almaniyanın hüquq-mühafizə orqanları bu şirkətin əməllərini araşdırmır? Biz axı, rəsmən müraciət etmişik. Həm də həmin "Cronimet" şirkətinə müraciət etmişik: gəlin, təmizləyin bu ekoloji terrorun fəsadlarını. Cavab yoxdur. Hüquq-mühafizə orqanlarından cavab yoxdur. Axı, biz bilirik ki, Avropada ekologiyaya nə qədər böyük diqqət göstərilir. Biz bilirik ki, havanın yarım dərəcə istiləşməsi indi bütün dünya, Avropa üçün böyük problem kimi qəbul edilir. İqlim dəyişikliyi problemi bu gün dünya gündəliyinin diqqətini cəlb edib. Amma burada açıq-aşkar görünür ki, təmiz qaynaqlardan axan çay sarı rəngə boyanır. Yəni, oradan götürülən nümunələr, o cümlədən işğal dövründə götürülən nümunələr bunu göstərir. Birinci olaraq erməni ekoloqları bu məsələni qaldırmışdılar. Onlar qeyd edirdilər ki, burada təbii fəlakət baş verir. Əlbəttə ki, onlar Azərbaycana, necə deyərlər, xoş münasibət göstərən adamlar deyildilər, onlar hesab edirdilər ki, bu torpaqlar Ermənistanın əlində əbədi olacaq. Ona görə məsələ qaldırmışdılar və əvvəlki rəhbərliyi, kriminal xunta rejimini - Serjik Sarkisyanı və onun qohumlarını ittiham etmişdilər. Onların da əlində sübutlar var. Amma bir addım atıldı? Yox.

Ona görə bu məsələni də indi bizim mərkəzi icra orqanları qaldırıblar və məşğul olurlar. Əlbəttə ki, siz mənim nümayəndəm kimi bütün bu məsələləri daha dərindən təhlil etməlisiniz və vurulmuş ziyanın ödənilməsi, məhkəmə və hüquq iddialarının qaldırılması ilə bağlı öz töhfənizi verməlisiniz. Əlbəttə, bu, əsas məsələlərdir, bu, ilkin mərhələdə görüləcək işlərdir, o cümlədən minatəmizləmə işləri. İndi bizim müvafiq qurumlarımız bu işlə məşğul olurlar. Əlbəttə ki, mənim yerlərdəki nümayəndələrim də burada fəal iştirak etməlidirlər, öz köməklərini göstərməlidirlər.

### Qarşıda duran digər vəzifələr

**Qarşıda duran digər vəzifələr, əlbəttə ki, ilk növbədə, keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tezliklə qayıtmaları ilə bağlıdır. Burada da dövlət nə mümkünsə edir, bütün güclər səfərbər olunub. Maliyyə vəsaiti səfərbər edilib.** Keçən il və bu il bu məqsədlər üçün hər il üzrə 2,2 milyard manat vəsait nəzərdə tutulub, yəni, toplam 4,4 milyard manat. Bu il bizim iqtisadi inkişafımız daha sürətlidir və ilin birinci rübündə iqtisadiyyat təxminən 7 faiz artıb, gəlirlərimiz də artıb. Ona görə mən hesab edirəm ki, təxirəsalınmaz işlərin görülməsi üçün biz əlavə vəsait ayırmalıyıq. Azad edilmiş torpaqların bərpası üçün əlavə vəsait ayırmalıyıq. Hökumətə bu məsələ ilə bağlı göstəriş verildi. Yəqin ki, yaxın gələcəkdə biz bunu rəsmən təsdiqləyəcəyik ki, daha çox işi bu il görə bilək. Hələ, deməli, ilin 4 ayı keçib, görüləcək işlər çoxdur. Ona görə keçmiş məcburi köçkünlərin qaytarılması üzrə birinci layihə, qeyd etdiyim kimi, yaxın zamanlarda icra olunacaq. Digər layihələrə də mütləq başlamaq lazımdır.

Zəngilan şəhərinin Baş planının ilkin versiyası mənə təqdim edilmişdir. Prinsip etibarilə bu, məqbuldur. Amma, əlbəttə ki, göstəriş vermişəm ki, daha geniş diskussiyalar, müzakirələr aparılsın. Siz də təbii olaraq bu işlərə dərhal qoşulun. Zəngilan şəhərinin Baş planı bütün müasir memarlıq normalarını ehtiva edəcək. Həm xarici görünüşü çox gözəl olmalıdır, rahatlıq olmalıdır, həm də bütün ekoloji standartlar burada təmin edilməlidir və tətbiq olunmalıdır. Zəngilan şəhəri və ümumiyyətlə, Zəngilan rayonu təbiət nöqteyi-nəzərindən çox gözəl olduğu üçün yeni yaradılacaq şəhər də bu gözəlliyi özündə təcəssüm etdirməlidir. Ona görə Baş planın qəbul edilməsi, təsdiq olunması və ondan sonra işlərin daha sürətlə getməsi, əlbəttə ki, təmin ediləcəkdir.

Səh. 4

# Prezidentin şəhid ailələri ilə görüşü bizə stimul verir

**Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak etdilər. Ramazan Bayramı günündə doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət yeni yaşayış kompleksi şəhid ailələrinə təqdim olundu. Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub.**

## Müsahib



**Sevinc Alızadə,**
"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri

Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Beləliklə, ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub. Bununla belə, dövlət başçısı bir daha şəhid ailələri, müharibə əlilləri, qazilərin problemlərinin həllinə daha həssas yanaşılmasının vacibliyini qeyd etdi. Bəs görəsən, bu gün şəhid ailələri, müharibə əlilləri və qazilərimizin həllini gözləyən daha hansı problemləri, qayğıları var? Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə maraqlı məqamlara toxunub:

- Məlum olduğu kimi, bu günlərdə Sabunçu rayonu ərazisində müharibə əlilləri və şəhid ailələri üçün yeni yaşayış kompleksinin açılışı oldu. Kompleksin açılışında iştirak edən ölkə başçısı çıxışında Şəhidlərin yaxınlarının daim diqqət mərkəzində olduğunu bir daha vurğuladı. Bu çıxış ölkə ictimaiyyətinə hansı mesaj verdi?

- Cənab Prezident və Mehriban xanımın Ramazan Bayramını şəhid ailələri ilə bir yerdə keçirmələri, şəhid ailəsinin qonağı olmaları hər birimiz üçün çox xoş oldu. Eyni zamanda ev növbəsində olan bir çox şəhid ailələri mənzillərlə təmin olundular. Bu, daim həm Şəhid ailələri ilə işləyən ictimai təşkilat, həm də bir şəhid ailəsi kimi bizim özümüzə də stimul verir. Prezidentin hər çıxışında şəhid adının, Şəhidlik zirvəsinin aliliyini, müqəddəsliyini daim vurğulaması özü cəmiyyətimizə bir mesajdır. Əminəm ki, aidiyyəti qurumlar, eyni zamanda sadə vətəndaşdan tutmuş, məmura qədər hər kəs bu mesajdan nəticə çıxaracaq və öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirəcək, dövlətimizə, şəhidlərimizə, xalqımıza layiq olmağa çalışacaqlar. Arzumuz budur ki, Şəhidəlrin canlarını fəda etdiyi torpağa, Vətənə layiqli olaq, ailələrinə, dəyərlərinə sahib çıxaq.

***- Ötən 1 illə müqayisədə bu gün şəhid ailələrinin üzləşdiyi əsas problemlərin həllində nə dərəcədə irəliləyiş, yaxud nöqsanlar var?***

- Qeyd edim ki, ictimai birlik olaraq Ramazan Bayramında regionlarda idik. Bakıda şəhid ailələri ilə bağlı tədbirlər, ziyarətlər çox edilir. Regionlar isə bəzən kənarda qalır. Axı Azərbaycan tək Bakıdan ibarət deyil. Regionlarda bizim kifayət qədər Şəhid ailələrimiz var.

Bu dəfə Göyçay rayonunda olduq. Orada bir tək övladını şəhid verən ananı ziyarət etdik. Oğul itirmək çox ağır dərddir. Düşünürəm, o insanlara elə kömək etməliyik ki, heç olmasa, sosail-məişət problemlərinin qayğısını çəkməsinlər. Onlar oğul, ər, ata, qardaş dərdini onsuz da yaşayırlar. Üstəlik, məişət qayğıları olanda üzərlərinə artıq yük düşür. Belə olanda həmin insanların həyatı dözülməz hal alır.

Biz həmin regionda olan bir şəhid ailəsində olduq. Onun iki övladı var. Şəhid könüllü olaraq döyüşüb. Bir məsələ var ki, könüllü döyüşənlərin ailələri təqaüd almırlar. Ən böyük problem də budur. Onların övladları sadəcə atasızlığa görə müavinət alırlar. Nəzər alın ki, bir uşağa ödənilən pul cəmi 80 manatdır. Şəhidin yoldaşı - qadın özü heç yerdə işləmir, təhsili yoxdur, amma uşaqların gələcəyi qarşıdadır və həmin pula onları dolandırmaq çətindir. Düzdür, Prezident təqaüdü olaraq 500 manat alır. Bu pul da şəhidin 5 nəfər vərəsələri arasında bölünür və hərəsinə 100 manat düşür. Təsəvvür edin, bununla nə etmək olar? Həmin ailənin xanımını məşğulluğa cəlb edib, işlə təmin etmək lazımdır. Bu istiqamətdə çətin məsələlər var. Qadın uşağını böyütməli, oxutmalı, ona təhsil verməlidir. Xüsusilə regionlarda bu məsələlərə diqqət olunmalıdır. Düzdür, hazırda orada icra başçısı yoxdur, amma region olaraq, yəqin ki, orada icra strukturu var və bu ailələrin hər birinin onlarda siyahısı var. Onlarda hər ailənin gəlir siyahısı var və ona uyğun olaraq diqqətdə saxlanılmalıdır.

Həmişə təklifim olub ki, şəhid ailələrinə kənardan dəstək vermək əvəzinə, ailənin içərisində olan resursdan istifadə edilməlidir. Məsələn, dediyim o xanımı hansısa peşəyə alışdırıb yaxşı bir işlə təmin etmək olar. Bu, həm özünəgüvəni artıracaq, həm də gələcəyə daha əminliklə baxmasına imkan yaradacaq. Ümumiyyətlə, o ailələrdə işlə təminat məsələsi ən böyük probemlərdən biridir. Hətta bizim təhsilli, diplomu olan şəhid ailələrinin xanımları da bu gün iş axtarışındadırlar. Onların işlə təminatı məsələsi problem olaraq qalır.

***- Bir çox hallarda Məşğulluq Xidmətinin iş təminatı ilə bağlı çox yardımçı ola bildiyi qeyd olunur...***

- Məşğulluq Xidməti tərəfindən təklif olunan işlər onların ixtisasına, həyat tələblərinə uyğun gəlmir. Fərqi yoxdur, kim olursa-olsun iş axtararkən maaşı əsas götürülür. Hər bir insan işə qəbul olunanda birinci növbədə alacağı məvaciblə nə dərəcədə dolana biləcəyini hesablayır. Maaş ən azından elə olmalıdır ki, gəliş-gedişini, gündəlik xərclərini ödəyə bilsin.

Bizim də əlimizdə hazırda iş axtaran, iş növbəsi gözləyən xanımların siyahısı var. Mənim müraciətim ölkədə fəaliyyət göstərən böyük şirkətlərdir. Hansı ki, insan resursları ilə kifayət qədər düzgün iş qura biliblər, təminatlı şirkətlərdir. Çox istərdim ki, o şirkətlər bu xanımları diqqətdə saxlasınlar, onlara təcrübə keçəndən sonra öz sektorlarında işlə təmin etsinlər. Şəhid xanımlarının o cür şirkətlərdə işləmək haqqıdır. Azərbaycanda olan böyük şirkətlər belə xanımları normal işlə təmin etsələr, problemin həllinə nail ola bilərik. Amma bu məsələ hələ də problemli olaraq qallır.

***- Bir qədər əvvəl qeyd etdik ki, şəhid ailələri mənzillərlə təmin olunur. Necə hesab edirsiniz, şəhid ailələrinin, müharibə əlillərinin evlə təminatı məsələsində əsas hansı məsələlər həllini gözləyir?***

- Şəhid ailələri ilə bağlı ən çox işlədiyim sahə budur. Bakı şəhərində, Sumqayıtda kimin qeydiyyatı varsa, onlar qaçqın və məcburi köçkünlər üçün ayrılmış mənzillərlə təmin olunurlar. Elə bir problem yaşanmır. Regionlarda hələ ki, o problem mövcuddur. İnsanlar hələ ev növbəsinə alınır, sonra onlara həyətyanı sahə ayrılır və 5 illik proqrama uyğun olaraq onlara mənzillər tikilib təhvil verilir. Siyahıların tutulmasına yenicə başlanılır. Yəni o sahədə işlər bir qədər vaxt aparır. Şəhərlərdə də problem var və bunu dəfələrlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bildirmişəm. Cənab Prezident bu yaxınlarda "Vətən Müharibəsi qəhrəmanlarına verilən evlərin özəlləşdirilməsi və onlara mülkiyyət hüququnun təsdiqlənməsi haqqında" sənədin verilməsi haqqında sərəncam imzaladı. Bu hələ ki, bütün şəhid ailələrinə aid edilmir. Evlər sadəcə müqavilə əsasında verilir, hələ heç bir mülkiyyət hüquqi təsbit edilməyib. Bu da bir narazılıq yaradır. Ümid edirik ki, bu yaxınlarda problem aradan qalxacaq. Digər əsas məsələlərdən biri verilən mənzilərin otaq sayları ilə bağlıdır. Bir Şəhidimiz var, XTD-nin mayoru olub. Onun bir qız övladı yadigar qalıb. Şəhidin ailəsi cavan xanımdır, ali təhsillidir. O da iş axtarır. Ona cəmi bir otaq təklif edilib. Mən bildirmişəm ki, bu xanım bundan sonra ev ala bilməyəcək və o, bu bir otaqla təminatını necə həyata keçirə bilər. Axı bu uşağın gələcəyi var, böyüməsi var. Bu, düzgün deyil. O xanım ən azı 2 otaqla təmin olunmalıdır.

> *Bakıda şəhid ailələrinin mənzil təminatında problem yaşanmır*

> *Prezidentin hər çıxışında şəhid adının, Şəhidlik zirvəsinin aliliyini, müqəddəsliyini daim vurğulaması özü cəmiyyətimizə bir mesajdır*

> *Şəhid xanımlarının o cür şirkətlərdə işləmək haqqıdır*

Biz o ailələrə standartlarla, Mənzil Məcəlləsi ilə baxmalı deyilik. Bu əlilliyin təyin edilməsində Avropa standartları ilə yanaşmaya bənzəyir. Bu yanaşma doğru deyil. Biz şəhid ailələrinə bir az da hansı dəyər daşıyıcıları olmaları prizmasından yanaşsaq, o fərqi hiss edərik. Mənzil Məcəlləsinin özü də köhnəlmişdir. Ona da dəyişikliklər edilməlidir. Hamımız hər yerdə şəhid ailələrinin qarşısında baş əydiyimizi deyirik. Gəlin görək, biz ən yaxşısını edə bilirikmi? O bir otağa Şəhid ailəsinin əlindən alınmış xoşbəxtliyini sığışdıra bilmərik. Bunu nəzərə almasaq, ona verilən 1 otaqla onsuz da o ailənin mənzil problemini həll etməyəcəyik.

Cənab Prezident bu istiqamətdə özünün münasibətini ortaya qoyur. Cəmiyyətdə onlara olan münasibət hər yerdə tələb olunan qaydada deyil. Sui-istifadə halları var. Cəmiyyətin bütün üzvləri bunu dərk etməlidir. Əgər yaşayırıqsa, nəfəs alırıqsa, əgər bu gün Qarabağa səfər edə biliriksə, bu gün mənim, onun övladı sağdırsa, rahat yaşayırsa, deməli, itirdiyimiz o kişilərə borcluyuq.

Onlar hər birimiz üçün, Vətən üçün öz xoşbəxtliklərini, həyatlarını qurban veriblər. Hamı Şəhidinə öz evinin itkisi kimi yanaşmalıdır. Nəsə etmək istəyəndə də onu elə təqdim etməliyik ki, onların qəlbi inciməsin. Biz onlara ən yaxşı həyat tərzini təmin etməyə çalışmalıyıq.

***- Qazilərimizə əlilliyin dəyərləndirilməsi ilə bağlı dəfələrlə deyilən mövcud problemlər aradan qalxıbmı?***

- Qazilərin əlilliyinin dəyərləndirilməsi ilə bağlı hələ də problemlər qalır. 2700 qazinin əlilliyi bu iki il ərzində dəyərləndirilib və aidiyyəti qurumlara təqdim edilib. Burada da həllini gözləyən məsələlər var. Bu yaxınlarda mən bir qazi ilə görüşdüm. O qazi uzun müayinələrdən keçəndən sonra nəticədə ona imtina qərarı verildi. Başa düşürük, deyirlər ki, əlillik xəstəliyin dərəcəsinə, meyarlarına görə verilməlidir. Bilirsiniz ki, elə insanlar var, onun sağlamlığının bərpa olunması qeyri-mümkündür.

Müharibədən iki ilə yaxın vaxt keçib, bu insan sağalmaz xəsarət alıb, amma buna əlillik vermək üçün 6 ay da vaxtı uzadırlar. Ona deyilir ki, 6 aydan sonra təkrar müraciət et. Onsuz da bunlar müharibədə ağır yaralar alıblar, əlildirlər. Üstəlik, belə adamları get-gələ salmaqla, əlilliyini gecikdirdikcə əsəbilikləri daha da artacaq. Axı "əlillik" gecikdikcə, onların maddi təminatı gecikir, onların ev növbəsinə durmaları və sair, ümumən bütün proses gecikir. Qayğıdan, diqqətdən kənarda qalırlar. Bu gün YAŞAT fonduna və digər yerlərə müraciət edən şəxs qazi, əlil deyilsə, o müraciətə baxılmır. Ona dəstək olunmur. Ona görə də bu, əlilliyi ala bilməyənlər arasında narazılıq yaradır. Yaxud müayinələr uzanır. Hər gün "VTEK"in qabağına nə qədər insan toplanır. Hamısı da narazı, əsəbi. Bunun bir yolu, həddi olmalıdır ki, insanlar rahatlıqla öz əlilllik dərəcələrini ala bilsinlər.

***- Şəhid ailələri onların adlarının əbədiləşdirilməsi üçün qarşılarında bir "medal, orden" baryerinin dayandığını deyirlər. Medal, orden almayan Şəhidin adına hər hansı bir küçə, məktəb verilə bilməz. Sizcə, bu məsələyə necə yanaşılmalıdır?***

- Siz yüngül dediniz. Medal bütün şəhidlərimizdə var. Allah hamısına rəhmət eləsin. Mən Şəhid adını heç bir medala, ordenə sığışdırmıram. Şəhidlik adı bir medala, hər hansı təltifə sığacaq qəhrəmanlıq deyil. Baxın, Türkiyədə şəhidlər arasında fərq yoxdur. Şəhid adı özü böyükdür. Bizdə isə Şəhidin ordeni olmalıdır. Medal alana isə heç nə verilmir. Əgər ordeni varsa, uzunsürən mübarizədən sonra onun adına məktəb verilə bilər, küçə verilə bilər. Bu da haqlı olaraq ailələr arasında narazılıq yaradır. Şəhidlər arasında fərq qoyulur. Mən sizi inandırım ki, 6 ildir Milli Qəhrəman Raquf Orucovun adına nə bir küçə tini var, nə bir məktəb - heç bir şey yoxdur. Onun təltifi bəzi üzdəniraq Müdafiə Nazirliyinin hazırda istefaya göndərilən şəxsləri tərəfindən təltif siyahısına salınmamışdır. Bu gün adının əbədiləşdirilməsində problemlər yaşayan ailələrdən biri də bizik. Hələ də mübarizə aparırıq. Belə faktlar çoxdur. Aprel şəhidlərinin ailələri, I Qarabağ savaşında şəhid olanların ailələri... Ən aşağı təltif Aprel döyüşlərində olub. Hansı ki, birinci ilk müdafiə xəttini yaran o qəhrəmanlar olublar. İlk zəfəri ölkəyə bəxş edənlər o qəhrəmanları olublar. Gəlin araşdırın, sorğu verin görək, onlar hansı medallarla təltif olunublar. Onlara verilən medal Müdafiə Nazirliyinin əmri ilə 3-cü dərəcəli medaldır.

16 illik təcrübəsi olan XTD-nin gizirinə Müdafiə Nazirliyinin əmri ilə "3-cü dərəcəli hərbi xidmətlərə görə" medalı verilib. O, heç bir əhəmiyyət daşımır. Belə faktlar, problemlər çoxdur. Biz bu narazılıqların hamısını ən yüksək kürsülərə çatdırırıq. Deyirik ki, tədbirlər görülməli, narazılıqlar aradan qaldırılmalıdır. O ailənin yarasına məlhəm onun Şəhidinin adının anılmasıdır, adının əbədiləşdirilməsidir. Ən böyük təskinliyimiz odur.

***✍ Tahirə Qafarlı***

## Təhlil

**_Aprelin 29-da ADA Universitetində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransda dünyanın müxtəlif ölkələrindən aparıcı beyin mərkəzlərinin tanınmış ekspertləri iştirak edirdilər._**




# Cənubi Qafqaz 10 ildən sonra

Tədbirdə çıxış edən və müxtəlif aspektli sualları cavablandıran Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlərdə bir çox mühüm məqamlarla bağlı dövlətimizin siyasi baxışları, reallıqlara hansı səviyyədə və meyarlar əsasında qiymət verdiyi əksini tapdı. Ən çox diqqəti cəlb edən məqamlardan biri isə Cənubi Qafqaz bölgəsinin siyasi-iqtisadi və beynəlxalq sahələr üzrə gələcək on ildəki durumunun rəsmi Bakının planlarında nə cür təsəvvür olunmasına dair ölkə başçısının açıqlamaları idi. 44 günlük Vətən müharibəsindən Zəfərlə çıxan Azərbaycaın Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaratdığı artıq heç kimə sirr deyil. Bunun məntiqi nəticəsi olaraq işğal faktı aradan qaldırıldı, erməni faşizminə ağır zərbə vuruldu, 30 il ərzində münaqişənin həlli ilə bağlı yaradılan ATƏT-in Minsk qrupu, demək olar ki, ləğv edildi.

**...Rəsmi Bakının qarşısında yeni hədəf var. Gələcək nəsillərin təhlükəsiz, sabit bir bölgədə qarşılıqlı əməkdaşlığa, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmətə əsaslanan sülh şəraitində yaşamını təmin etmək, Azərbaycanın siyasi, iqtisadi, hərbi müstəqilliyini gücləndirmək. Bu hədəflə bağlı Vətən müharibəsindən keçən müddət ərzində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə çox gərgin diplomatik-siyasi fəaliyyət yürüdülür. Bu fəaliyyətin ilkin nəticələrini görməkdəyik.**

Keçmiş Minsk qrupu həmsədrləri, artıq Cənubi Qafqaz üzrə xüsusi nümayəndə adlandırılır, Ermənistanla yekun sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın beynəlxalq hüquqa əsaslanan təklif etdiyi 5 prinsip İrəvan tərəfindən qəbul edilib. Ermənistanda iki il əvvəl eşitdiyimiz «Dağlıq Qarabağ Ermənistandır və nöqtə» bəyanatının yerini «Dağlıq Qarabağ Azərbaycan ərazisidir nida» tezisi tutur. Türkiyə irə Ermənistan arasında 30 ildən sonra münasibətlərin normallaşdırılması üçün danışıqlar başlayıb, təbii ki, Azərbaycanın maraqları nəzərə alınmaqla. Prezident İlham Əliyevin təklif etdiyi «3+3» formatında region ölkələrinin qarşılıqlı əməkdaşlıq platformasının qurulması istiqamətində ciddi iş gedir. Regional kommunikasiyaların bərpası və sərhədlərin müəyyənləşdirilməsi istiqamətində İrəvanın bütün təxribat cəhdləri iflasa uğrayıb.

> *Azərbaycana gəldikdə, hesab edirəm ki, 10 il müddətində, əlbəttə ki, biz qat-qat güclü olacağıq*

> *Biz sərvət və sabitlik yaradıcısıyıq*

Təbii ki, əldə olunan müsbət nəticələr rəsmi Bakının Cənubi Qafqazın on ildən sonrakı vəziyyəti ilə bağlı açıqladığı məqamların reallaşdırılacağı ümidlərini artırır. Bununla belə, Azərbaycan rəhbərliyi bu məsələdə ehtiyatlıdır və gözlənilən risklərə, təhdidlərə və çağırışlara daim hazırdır. Bu, dövlət başçısının sözügedən məsələ ilə bağlı çıxışında da əksini tapıb:

**«Hesab edirəm ki, postsovet məkanında dünyadakı vəziyyət regional vəziyyətə ciddi şəkildə təsir edəcək. Buna görə də bu proqnozu verəndə biz ağlımızda iki ssenarini tutmalıyıq. Birinci ssenari postsovet məkanı üçün sülh şəraitində gələcəkdir, digər ssenari isə sülh şəraitində olmayan gələcəkdir. Rusiya və Ukrayna arasında indi gedən müharibəni nəzərə alsaq, biz müharibənin nə vaxt bitdiyini və postmüharibə vəziyyətinin nədən ibarət olduğunu bilmirik. Lakin Azərbaycana gəldikdə, hesab edirəm ki, 10 il müddətində, əlbəttə ki, biz qat-qat güclü olacağıq. Mən ümid edirəm ki, o vaxta kimi və bəlkə hətta ondan da əvvəl Ermənistanla olan bütün bu anlaşılmazlıqlar və bu problemlər öz həllini tapacaqdır. Cənubi Qafqaz regionu möhkəm şəkildə inteqrasiya edəcək və üç Cənubi Qafqaz ölkəsi arasında sıx əməkdaşlıq olacaqdır. Bunun üçün imkanlar mövcuddur».**

Bəli, artıq Azərbaycan keçmiş illərdə regional sülh və satibliyə, beynəlxalq təhlükəsizliyin təminինə töhfə verən bir çox mühüm layihələrə imza atıb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, Bakı-Qars, Şimal-Cənub, Şərq-Qərb layihələri Ermənistan istisna olmaqla, Azərbaycan, Türkiyə və Gürcüstanın regional əməkdaşlığının bəhrəsidir. Bu layihələrin əsas təşəbbüskarının Azərbaycanın siyasi rəhbərliyi, iqtisadi lokomativinin isə dövlətimiz olması heç kimə sirr deyil.

**Prezident bu məsələdə Azərbaycanın müharibədən yeni çıxan ölkə olmasına baxmayaraq, bu ilin 3 aylıq göstəricilərinə xüsusi diqqət çəkir. 2022-ci ilin üç ayında Azərbaycan iqtisadiyyatı 7 faiz, ixrac 90 faizdən çox artıb. O cümlədən enerjiyə aid olmayan ixrac sektorunda 45 faiz artım qeydə alınıb.**

Bu rəqəmlər o anlama gəlir ki, Azərbaycanın iqtisadi inkişafı və beynəlxalq nüfuzu Ermənistanla əməkdaşlıq qurulmadan da reallaşır.

Təbii ki, bölgədə sülhün və sabitliyin əldə olunması təktərəfli təşəbbüslərlə mümkün deyil. Münaqişənin iki tərəfi olduğu üçün qarşı tərəfin də Azərbaycanın bu təşəbbüslərinə eyni dərəcədə adekvat cavab verməsi əsas şərtdir. Dövlət başçısının da vurğuladığı kimi:

**«Bu, əlbəttə ki, Ermənistandakı gündəmdən, orada nə baş verəcəyindən, Ermənistan hökumətinin sülh gündəliyi ilə bağlı planlarından, yəni, onların icra olunub-olunmayacağından asılı olacaqdır. Lakin hesab edirəm ki, siyasi nöqteyi-nəzərdən tərkib tamamilə yeni olmalıdır. İqtisadi, regional nəqliyyat əlaqələri nöqteyi-nəzərdən tamamilə yeni xəritə olmalıdır. Çünki biz artıq yeni nəqliyyat xəritəsini yaratmışıq. 2008-ci ildə Bakı-Tbilisi-Qars üzərində işləməyə başlayanda və 2017-ci ildə bu kəmərin tamamlanmasına nəzər salsaq görərik ki, bu, tamamilə yeni mənzərədir».**

Dövlət başçısının açıqladığı digər mühüm məqam gələcəkdə regional əməkdaşlığın tək «3+3» formatı ilə yekunlaşdırılmamasıdır. Artıq bu platformanın növbəti mərhələdə «3+5» və ya «6+5» formatında genişləndirilməsidir. Söhbət Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığın genişləndirilməsindən gedir. Prezidentin çıxışından sitat:

«Düşünürəm ki, bundan əvvəl bəlkə Cənubi Qafqaz və Mərkəzi Asiya arasında daha çox qarşılıqlı əlaqələr ola bilər. Bu gün bu, baş vermir, bu, bir az qeyri-müntəzəm xarakter daşıyır və bu, əsasən, Azərbaycan üzərindən, bizim infrastruktur müəssisələrimiz üzərindən baş verir. Lakin hesab edirəm ki, Azərbaycanın Xəzər dənizinin sahilində yerləşən bir dövlət, Cənubi Qafqazın bir dövləti kimi bu formatda xüsusi rolu var və bu, baş verə bilər. Beləliklə, bu, bizim planlarımızdır. Adətən bizim planlar rəsmən elan edildikdə icra olunur. İndi dediklərim mənim düşüncələrimdir. Mən bunu rəsmi gündəliyin bir hissəsinə hələ də çevirməmişəm. Biz bunun üzərində işləyirik. Hesab edirəm ki, Azərbaycanın Mərkəzi Asiya ölkələrinin öz aralarında apardığı siyasi məsləhətləşmələrə qoşulmaq üçün böyük potensialı var. Bilirsiniz ki, beş ölkə formatı var. Bizim bu ölkələrlə və ölkələrin xalqları ilə çox yaxın tarixi əlaqələrimiz və ənənəvi münasibətlərimiz var. Əlavə olaraq, Xəzər dənizi mədəniyyətlər və iqtisadiyyatlar arasında daha böyük körpü rolunu oynamalıdır. Ermənistan bu prosesdə iştirak edəcəkmi? Bilmirəm.

Düşünürəm ki, onlar iştirak etsələr hamı üçün yaxşı olar. Bunun üçün imkan var. Bizim təklif etdiyimiz Zəngəzur dəhlizi adlandırılan dəhliz onların ərazisindən keçəcək. Əminəm ki, keçəcək, lakin onlar yenə də vaxt itirirlər. Çünki biz artıq Ermənistan sərhədinə avtomagistralı və dəmir yolunu tikirik və dəmir yolu bu ilin sonuna kimi hazır olacaq və avtomagistral ola bilsin sonra. Beləliklə, onlar bu prosesdə iştirak etməsələr, onda onlardan dolayı yollarla keçəcəyik».

Əslində, hələlik hədəf olaraq tam açıqlanmasa da, bu ideyanın da reallığa çevrilmək şansları böyükdür. Bu gün Avropaya yeni çıxış imkanları arayan Çinlə Azərbaycan arasında çox yaxşı qarşılıqlı əməkdaşlıq, siyasi və iqtisadi münasibətlər mövcuddur. Rusiyadan enerji asılılığını azaltmağa çalışan Avropa İttifaqı ilə rəsmi Bakı arasında qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlandığını söyləyə bilərik. Artıq iki tərəf arasında münasibətlərə dair yeni Saziş üzərində işlər yekunlaşmaq üzrədir.

Mərkəzi Asiya dövlətləri ilə Azərbaycan və Türkiyənin çox sıx münasibətləri var. Bundan əlavə, Azərbaycan Şərq-Qərb dəhlizinin inkişafı ilə bağlı bu gün ən müasir tankerlərin istehsalı ilə məşğuldur. Limanlar artan yük daşımalarını qarşılamaq üçün genişləndirilir, infrastruktur sürətlə reallaşdırılır. Təbii ki, bu məsələdə müsbət irəliləyişlərin əldə olunması üçün təktərəfli yox, bütün tərəflərin eyni hədəfə yönəlməsi zəruridir.

Beləliklə, Azərbaycan Cənubi Qafqaz regionunda hansı proseslərin baş verməsindən asılı olmayaraq, növbəti 10 ildə yenə də iqtisadiyyatı, hərbi gücü, siyasi çəkisi, beynəlxalq nüfuzu baxımından əsas söz sahibi olaraq qalacaq. Rəsmi Bakının yaratdığı yeni reallıqlardan, imkanlardan yararlanıb-yararlanmamaq seçimi isə qarşı tərəfin siyasi iradəsindən və beynəlxalq hüququn əsas prinsipi olan ərazi bütövlüyü və suerenliyə qarşılıqlı hörmət, sərhədlərin tez bir zamanda müəyyənləşdirilməsi üçün qəti ərarlar verməsindən asılıdır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, «Biz sərvət və sabitlik yaradıcısıyıq». Azərbaycan dövlət olaraq həm sərvətini, həm də qurub yaratdıqlarını müdafiə etmək gücündədir. Bu indi də belədir. On il sonra da belə olacaq.

***✍ Azad Əliyev***

# Yeniləşən Azərbaycan məktəbləri

## İnsan kapitalına qoyulan sərmayə

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

### Layihə

***Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, bu sahədə innovativ və uğurlu beynəlxalq təcrübənin tətbiqi istiqamətində son illərdə çox böyük işlər görülür. Son iki ildə pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, bu məsələ diqqətdən kənarda qalmayıb. 2020-ci ildə ölkə üzrə 34 təhsil müəssisəsində tikinti, bərpa-gücləndirmə və əsaslı təmir işləri görülüb, 60 modul tipli məktəb quraşdırılıb. 2021-ci ildə isə ölkəmizdə ümumilikdə 88 təhsil müəssisəsi tikilib və ya əsaslı təmir edilib.***



Qeyd edək ki, dövlət səviyyəsində bu sektorda həyata keçirilən tədbirlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu olduqca mühüm töhfələr verib. Fondun bu istiqamətdə həyata keçirdiyi layihələrin sayı və miqyası ilbəil daha da genişlənir.

Təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchiz olunması bu sahənin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, eyni zamanda, gənc nəslin daha savadlı və bilikli yetişməsi ilə nəticələnib. Yeni məktəb binalarının və tədris korpuslarının inşası həm də şagird sıxlığını aradan qaldırmaqla, onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

Yeni tikilən məktəblərin əksəriyyətinin açılışında Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirak etməsi isə ölkəmizdə təhsilin inkişafının hər zaman diqqət mərkəzində olmasının əyani göstəricisidir.

Yeri gəlmişkən, bir neçə gün öncə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində inşa olunan 304 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Elşən Qafarov bildirir ki, son illər ölkədə ümumtəhsil müəssisələrinin infrastrukturunun qurulması ilə bağlı böyük işlər həyata keçirilib:** “Bu işlər, əsasən, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Heydər Əliyev Fonduna rəhbər təyin olunmasından sonra baş tutub. Tarixə nəzər salsaq, Azərbaycanda ümumtəhsil məktəblərinin tikintisinin üç dövrü var. 1972-ci ildə SSRİ-nin təhsil naziri Purakyev kənd və rayon məktəblərinin infrastrukturunun yaxşılaşdırılması ilə bağlı qərar qəbul etmişdi. O zaman Azərbaycanda təxmini 600 məktəbin tikintisi gözlənilirdi. Lakin mərhum lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycana ayrılan məktəblərin sayı 50 faizə qədər artırıldı. Nəticədə 1972-ci ildə ölkədəki tikilən məktəblərin sayı təxminən 1000-ə çatdırıldı. İkinci dövr Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə 2005-2011-ci illəri əhatə edir. Ölkədə təxminən 300-ə yaxın məktəb tam yenidən tikildi və ya əsaslı şəkildə təmir olundu. Həmin məktəblər müasir tələblərə cavab verir. 2014-2015-ci illərdə dünya iqtisadi böhranı ilə bağlı müəyyən tikintilər bir qədər zəifləsə də, 2015-ci ildən Azərbaycanda modul tipli məktəblərin tikilməsinə başlandı. 2018-ci ildən etibarən ölkədə məktəb tikintisinin yeni dalğası baş tutdu. Hazırda ölkədə 4432 ümumitəhsil məktəbi var. Bu məktəblərdən 3800-ü yenilənib. Bütün bu dəyişikliklər Heydər Əliyev Fondunun təhsil sektorunda göstərdiyi xidmətlərin bariz nümunəsidir. Məktəblərin yenilənməsi ilə yanaşı, onların maddi-texniki bazasının təminatı ilə bağlı da ciddi işlər görülüb. Ümumilikdə, hər il təhsil sektorunu əhatə edən xüsusi dövlət proqramları təşkil olunur ki, bu da təhsil sahəsinə göstərilən diqqətin bariz nümunəsidir”.

> “ *Bütün bu dəyişikliklər Heydər Əliyev Fondunun təhsil sektorunda göstərdiyi xidmətlərin bariz nümunəsidir*



**Elşən Qafarov,**
təhsil eksperti

■ **Mövzu ilə bağlı bizimlə söhbət zamanı Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü fəlsəfə doktoru İlqar Orucov da deyib ki, Prezident İlham Əliyevin hər zaman xüsusi həssaslıqla, qayğı ilə yanaşdığı və diqqətdə saxladığı sahələrdən biri təhsildir:** “Dövlətimizin başçısı hər zaman bildirir ki, inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salanda həmin ölkələrin və xalqların uğurlu gələcəyini təmin edən başlıca faktorun malik olduqları təbii resurslar deyil, məhz təhsil, elm və texnologiyaların səviyyəsi ilə müəyyənləşdiyi aydın görünür. Təhsilə qoyulan investisiyaları artırmaqla biz təhsil və elmtutumlu ölkələrin nail olduğu yeni texnologiyaları əldə etmək, elmi innovasiyalar və inkişaf etmiş təhsilə söykənən rəqəmsal və biliklər iqtisadiyyatı qurmaq və beləliklə də dövlətimizin davamlı iqtisadi inkişafını və cəmiyyətin yüksək rifahını təmin etmək missiyası hədəfləmiş oluruq. Bu hədəfə çatmaq üçün dövlətimizin başçısı böyük uzaqgörənliklə “qara qızılın insan kapitalına çevrilməsi” konsepsiyasını irəli sürərək təhsil sahəsinə dövlət büdcəsindən ayrılan vəsaitlərin hər il məqsədli şəkildə artımını təmin edib”.

O bildirib ki, İlham Əliyevin Azərbaycana prezidentliyi dövründə - 2003-cü ildən bu günədək 3500-dən çox yeni məktəb tikilib və ya əsaslı təmir olunub: “Yeni təhsil müəssisələrinin inşası, əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təchizi istiqamətində görülən işlər hazırda da davam etdirilir. Hazırda hər il orta hesabla yüzədək məktəb binası inşa olunur.

Azərbaycanın ən ucqar kəndlərində, hətta sovet dövründə məktəb olmayan kəndlərdə belə müasir standartlara cavab verən məktəblər inşa edilib və ya modul tipli məktəb quraşdırılıb. Mən dünyanın qabaqcıl ölkələrində, o ölkələrin məktəblərində olmuşam. Gördüklərim bir daha təsdiq edib ki, Azərbaycan məktəbləri dünyanın qabaqcıl ölkələrinin məktəbləri səviyyəsindədir. Finlandiya dünyada öz təhsil sisteminə görə öndə gedir. Ancaq Finlandiya məktəbləri ilə Azərbaycan məktəblərini infrastruktur cəhətdən müqayisə etsək əminliklə deyə bilərik ki, Azərbaycan məktəbləri heç də geri qalmır. Təbii ki, bu nailiyyətlərin əldə edilməsində Heydər Əliyev Fondunun həyata keçirdiyi “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı, “Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramı, “Təhsilə dəstək”, ümumiyyətlə dövlət maraqları baxımından əhəmiyyətə malik bir sıra layihələr də mühüm əhəmiyyət kəsb edir.

“Yeniləşən Azərbaycana yeni məktəb” proqramı həyata keçiriləndən sonra hətta respublikamızın ən ucqar regionlarında zəruri avadanlıq və ləvazimatlarla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəblər tikilib istifadəyə verilib. Ümumilikdə 2003-2021-ci illər ərzində Fond tərəfindən 3400-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib ki, bu da bütün məktəblərin 76 faizini təşkil edir”. Ekspert həmçinin qeyd edir ki, Azərbaycan təhsilinə, məktəbinə göstərilən qayğı nəticəsində bu gün təhsil alan gənclərin səsi dünyanın nüfuzlu ali təhsil müəssisələrindən, elmi mərkəzlərindən gəlir: “Onlar dünyanın transmilli korporasiyalarında təmsil olunurlar. Həmin gənclər Azərbaycanını simasıdır və bu simanın formalaşmasında məktəblərin rolu, dövlətimizin siyasi rəhbərliyinin təhsil sektoruna ardıcıl qayğısı danılmazdır. 2003-cü ildən dövlətimizə rəhbərliyi dövründə Prezident İlham Əliyevin təhsilə göstərdiyi qayğı və diqqətə nəzər saldıq. Bu həssas münasibət ölkəmizin uğurlu inkişafında təhsilin rolunu və yerini düzgün müəyyənləşdirməkdən irəli gəlir.

Ümummilli lider Heydər Əliyevin iradəsi və imzası ilə əsası qoyulan nəhəng layihələri Prezident İlham Əliyev uğurla davam etdirərək bütün sahələri, həmçinin təhsil sektorunu inkişaf etdirməkdədir. Prezident hər zaman təhsil işçiləri ilə görüşdə şagirdlərin tərbiyəsinə xüsusi yer verilməsini, milli dəyərlərə, vətənə, xalqa, torpağa bağlı ruhda yeni nəslin formalaşmasını tövsiyə edir. Bu yerdə bir məqamı vurğulayım ki, Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin prezident seçildiyi illərdə orta məktəblərdə oxuyan, təhsil və milli ruhda tərbiyə alan həmin o nəsil məhz onun rəhbərliyi ilə misilsiz igidlik nümunələri göstərərək vətən, dövlət və xalq naminə qanlarından, canlarından keçməklə 30 illik işğala son qoydular. Bir sözlə, 2003-cü ildən etibarən Prezident İlham Əliyevin ardıcıl və yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz bütün sahələrdə, o cümlədən təhsil sahəsində də yüksək nailiyyətlər əldə edib və bu uğurların gələcək illərdə də davam edəcəyinə inamımız böyükdür”.

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Rusiyanın baş ravvini Berl Lazar xarici işlər naziri Sergey Lavrovun yəhudilərlə bağlı açıqlamalarını şokedici adlandırıb. Baş ravvin Lavrovu yəhudilərdən üzr istəməyə çağırıb. “Rusiya diplomatiyasının rəhbərinə məsləhət verməyə haqqım olduğunu hesab etmirəm. Amma o, yəhudilərdən üzr istəsə və sadəcə olaraq öz səhvini etiraf etsə, pis olmazdı. O zaman məsələni bağlanmış hesab etmək olar”, - Lazar Yəhudi Teleqraf Agentliyinə açıqlamasında bildirib.

■ Müstəqil Belarusun ilk lideri Stanislav Şuşkeviç Minskdə dünyasını dəyişib. Bu barədə məlumatı siyasətçinin həyat yoldaşı İrina yayıb. Qeyd edək ki, Stanislav Şuşkeviç 1991-1994-cü illərdə Belarus Ali Sovetinə rəhbərlik edib.

■ “Bu il son zəng ənənəvi qaydada keçiriləcək”. Bunu təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasına bildirib. O qeyd edib ki, pandemiya hələ də davam edir. “Mövcud qaydalar əsasında bu il məktəblərdə son zəng şənliyinin keçirilməsi gözlənilir”, - nazir əlavə edib. Qeyd edək ki, Azərbaycan məktəblərində “Son zəng” iyunun 14-də keçirilir.



■ Ukraynada İsraildən olan muzdlular “Azov” alayının bölmələri ilə birgə döyüşür”. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Mariya Zaxarova deyib. Onun sözlərinə görə, İsraildə bunu bilməyə bilməzlər: “Mən videolar, materiallar görmüşəm”.

■ Azərbaycanın quş əti və yumurta istehsalçıları ölkədə 6 aylıq yem ehtiyatının 2 ayının qarşılanması üçün 40 mln. manata yaxın vəsaitin Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən güzəştli kredit şəklində ayırmasını təklif ediblər. Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasından verilən məlumata görə, bu məsələyə dair Assosiasiyanın İdarə Heyətinin sədri Mürvət Həsənli ilə Fondun rəhbəri Osman Xalıyev arasında görüş keçirilib.



■ Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə əməliyyatları barədə aylıq məlumat açıqlayıb. Apelin 1-dən 30-a qədər Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı,Cəbrayıl və Zəngilanda 341 piyada əleyhinə mina, 482 tank əleyhinə mina və 673 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb. Bildirilib ki, 1701.5 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

■ Avropa İttifaqı (Aİ) Moskva və bütün Rusiyanın patriarxı Kirill sanksiya tətbiq edə bilər Bu barədə ”France Press” məlumat yayıb. Bu təklif Aİ-nin Rusiyaya qarşı altıncı sanksiyalar paketini ehtiva edən sənəddə yer alıb.

# Zəngəzur dəhlizi, artıq reallıqdır

◂ əvvəli 1-ci səhifədə

Zəngilanda kənd təsərrüfatının inkişafı ilə bağlı çox böyük imkanlar var. Mən artıq bəzi fikirlərimi bildirmişəm. Amma rayonun bütün kənd təsərrüfatı potensialı tam dəqiqliyi ilə təhlil edilməlidir və ora qayıdacaq keçmiş məcburi köçkünlər üçün də tövsiyələr verilməlidir. Əlbəttə ki, burada mərkəzi icra orqanları - Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və mənim nümayəndəm kimi siz birgə işləməlisiniz. Zəngilan rayonunun kənd təsərrüfatı potensialının maksimum dərəcədə realizə etmək üçün tövsiyələr verilməlidir - harada hansı iş görülməlidir? Əlbəttə ki, sovet vaxtında orada kənd təsərrüfatı ilə bağlı aparılan işlər təhlil edilməlidir.

**Ancaq təbii ki, bu, bizim üçün əsas ola bilməz. Çünki o vaxt tam fərqli aqrotexniki imkanlar, tam fərqli texnologiyalar var idi.** Biz Zəngilan rayonunda kənd təsərrüfatı sahəsinə ən qabaqcıl texnologiyaları gətirməliyik və bunu mən mərkəzi icra orqanları qarşısında vəzifə kimi qoymuşam - dünyada ən mütərəqqi texnologiya nədirsə, o, bizdə olmalıdır, xüsusilə azad edilmiş ərazilərdə. Çünki 30 ilə yaxın insanlar torpaq həsrəti ilə yaşamışlar, Ermənistan onların ömrünün böyük hissəsini oğurlamışdır. Onlardan minlərlə, on minlərlə insan öz doğma torpağını görməyib, həsrətlə həyatdan gedib. Ona görə oraya qayıdacaq insanlar üçün xüsusi şərait yaradılmalıdır. Kənd təsərrüfatı həm məşğulluq, həm ərzaq təhlükəsizliyi, həm də ixrac deməkdir. Zəngilan rayonu həmsərhəd rayondur, həm İranla, həm Ermənistanla və Naxçıvana da məsafə çox yaxındır. Zəngəzur dəhlizinin işə düşməsi nəticəsində, eyni zamanda, Zəngilan rayonundan İran İslam Respublikasına keçən yollar nəzərə alınmaqla ixrac bazarlarına Zəngilanda yetişdiriləcək malların çox böyük çıxış imkanı var və biz bundan maksimum faydalanmalıyıq. Çünki Zəngilandan Ordubada gedən dəmir yolu, avtomobil yolu, o cümlədən İran ərazisinə keçir, - mart ayında müvafiq Memorandum imzalanmışdır, - eyni zamanda, Ermənistan ərazisindən də mütləq keçməlidir və əminəm ki, keçəcəkdir. Ona görə ixrac bazarlarına yaxınlığı, əlbəttə ki, əlavə imkanlar yaradır, həm ixrac üçün, həm də idxal üçün. Yerli istehsalın genişləndirilməsi üçün, əlbəttə ki, ixrac malları da gətirilməlidir, texnologiyalar gətirilməlidir.

**Təbiətin qorunması, əlbəttə ki, ön planda olmalıdır. Zəngilan rayonunun çox gözəl təbiəti var, füsunkar təbiəti var və təbiət nöqteyi-nəzərdən hesab edirəm ki, ölkəmizin ən gözəl rayonlarından biridir. Təbii ki, Zəngilan rayonunda böyük turizm potensialı vardır.** Çünki gözəl meşələr, dağlar, bulaqlar, çaylar və beynəlxalq hava limanı, dəmir yolu, avtomobil yolları bütün bunlar böyük bir sərvət olacaq. Zəngilan rayonunun turizm potensialı, əlbəttə ki, digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılmalıdır. İndi Zəngilan, Qubadlı, Laçın yolu ilə Şuşa şəhərinə də məsafə çox qısa olacaq, çox rahat olacaq. Yəni, Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilməlidir, təxirəsalınmaz işlərə biz dərhal başlamalıyıq. Yeni otellər, istirahət zonaları yaradılmalı, kənd turizmi inkişaf etdirilməlidir. Bu, oraya qayıdacaq insanlar üçün də məşğulluq və gəlir mənbəyi olacaq. Yəni, burada dünyada və xüsusilə Avropada mövcud olan ən mütərəqqi prinsiplər tətbiq edilməlidir, bütün sahələrdə. Mən, sadəcə olaraq, əsas sahələri qeyd edirəm. Amma bütün sahələrdə ən mütərəqqi təcrübə, ən şəffaf mexanizmlər, insanlar üçün rahatlıq təmin edilməlidir və belə olan halda biz istədiyimizə nail olacağıq.

**İstədiyimiz isə odur ki, keçmiş məcburi köçkünlər tezliklə öz dədə-baba torpaqlarına qayıtsınlar, orada rahat yaşasınlar və maksimum çox adam oraya qayıtsın, orada yaşasın.** Biz elə şərait yaratmalıyıq ki, onlar da həvəsli olsunlar. Biz İkinci Qarabağ müharibəsindən sonra keçmiş məcburi köçkünlər arasında sorğu keçirmişik ki, biz bilək, nə qədər insan qayıtmaq istəyir, çünki görüləcək işlər, tikilən binalar buna uyğun olmalıdır. Şadam ki, keçmiş məcburi köçkünlərin mütləq əksəriyyəti qayıtmaq üçün öz fikirlərini bildirmişlər. Amma, əlbəttə ki, onlar təxminən 30 il Bakıda, Sumqayıtda, başqa yerlərdə yaşayıblar, bu yaşayışa öyrəşiblər, onların işləri var, onların uşaqlarının məktəbləri var, nəvələrinin məktəbləri var. Biz bunun hamısını başa düşürük və bir yerdən başqa yerə köçmək o qədər də asan məsələ deyil. Amma, əminəm ki, Vətən sevdası onları oraya aparacaq. Biz elə etməliyik ki, onlar oraya gedən zaman orada özlərini rahat hiss eləsinlər”.

***Hafta.az***

# Özəl məktəblər təhsil haqqını qaldırdı

◂ əvvəli 1-ci səhifədə

Bundan başqa, ərzaq məhsullarının qiymətində ciddi şəkildə artım var. Və bütün bunlar da özəl məktəblərin xidmət haqqına təsir göstərən amillərdir. Məhz bu səbəbdən təhsil haqqında artımın baş verməsi gözləniləndir”.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Xalid Kərimli deyib ki, özəl müəssisələr öz qiymətlərini, xidmətlərini, məhsullarını təklif etməkdə sərbəstdirlər:**

“Özəl müəssisələr istədiyi vaxt istədiyi qiyməti müəyyənləşdirə bilər və ya dəyişə bilər.

Adətən burada müştərilərlə bağlanan müqavilələr illik olur. Və müqavilə şərtlərinə uyğun olaraq qiymətlərə yenidən baxa bilərlər. Yəni, bu özəl təhsil müəssisəsi rəhbərliyinin hüququdur. Vətəndaş da özəl təhsil müəssisəsinə övladını öz təşəbbüsü ilə qoyur. O ki qaldı özəl təhsil müəssisələrinin qiymət atımını uyğun hesab etməsi məsələsinə, bilirsiniz ki, ölkədə həm ərzaq, həm qeyri-ərzaq məhsullarının qiymətini artıb, həm də xidmətin qiyməti bahalaşıb. Son 1 ildə ümumi inflyasiyanın həcmi 12,2 faizdir. Ərzaq məhsullarında bu rəqəm 17,5 faiz, ödənişli xidmətlərdə 10,1 faiz, qeyri-ərzaq məhsullarında isə 6 faizdən yuxarıdır. Özəl təhsil müəssisələri də öz fəaliyyətlərini qurarkən öz tələbələrinə yemək təklif edirlər, eyni zamanda, kommunal xidmətlərdə istifadə edirlər və. s. Bir sözlə, özəl müəssisələrin ötən illə müqayisədə xərcləri kəskin artıb. Onlar da mənfəətlərini itirməmək, fəaliyyətlərini davam etdirmək üçün qiymətlərini qaldırmalıdırlar”. Ekspert həmçinin vurğulayıb ki, ölkədə özəl təhsil müəssisələrinin sayı çox olmadığından rəqabət səviyyəsi aşağıdır:

“Əgər özəl təhsil müəssisələri çox olarsa burada rəqabət xidmətin keyfiyyətini yaxşılaşdıra bilər. Amma ümumilikdə özəl orta məktəblərin müəyyən etdiyi təhsil haqqının göstərdikləri xidmətlərə adekvat olub-olmaması barədə birmənalı fikir söyləmək çətindir. Təbii ki, 10-15 min manat illik təhsil haqqı ödəyən vətəndaş əgər o pulu ödəməkdə davam edirsə, deməli, xidmətdən məmundur. Və yaxud da məcburiyyət qarşısındadır. Çünki dövlət müəssisəsində ümumiyyətlə, daha bərbad təhsil verilir. Bununla bağlı ən yaxşısı valideynlər arasında sorğu keçirilməlidir”.

***Sevinc***

# Yeni "ittifaq" ssenarisi



***Belarus Prezidenti Aleksandr Lukaşenko keçmiş sovet respublikalarının ittifaq dövlətinə qoşulacağını proqnozlaşdırıb. Lukaşenko Rusiyanın Voronej vilayətinin qubernatoru ilə görüşündə bildirib ki, suveren, müstəqil dövlətlər - Belarus və Rusiya inkişaf etsin deyə, yeni prinsiplər əsasında vahid ittifaq dövləti qurmağa çalışırıq. Əminəm ki, keçmiş Sovet İttifaqının digər respublikaları da bura qoşulacaqlar. Xatırladaq ki, Aleksandr Lukaşenko bu ilin əvvəlində Ukrayna və Qazaxıstanın 15 il ərzində ittifaq dövlətinə qoşulacağını iddia etmişdi. Türkmənistan, Özbəkistan və Tacikistan, məncə, iqtisadi zərurətlərinə görə qoşulacaqlar. Ermənistanın isə gedəcək yeri yoxdur. Belarus lideri Türkiyə ilə hərbi müttəfiqlik anlaşması imzalayan Azərbaycanın bu prosesdən kənarda qalacağını deyib. Mövcud reallığa və Qarabağda rus sülhməramlılarının fəaliyyətinə baxanda Rusiyanın bununla barışdığını söyləmək olarmı və doğrudanmı Türkiyə ilə müttəfiqlik Azərbaycanı ittifaqda görmək istəyənlərin qarşısında dayanıb və prosesdən kənarda saxlanılmaq üçün o dövlətlərə zəmin yaradım?***



## Aktual

**■ Siyasi elmlər üzrə fəlsəfə doktoru Mətin Məmmədli hafta.az-a şərhində bildirib ki, Lukaşenko öz sözünü deyil, Rusiya Prezidentinin fikirlərini ifadə edib.** O bildirib ki, Rusiya hakimiyyətinin postsovet məkanı ilə bağlı gündəliyində dayanan başlıca məsələ keçmiş Sovet İttifaqını hər hansı bir formada bərpa etməkdir. Lukaşenko bu məsələni açıq formada ifadə etdi. "Düşünürəm, əslində, bu gün postsovet məkanında baş verən kəskin proseslərin, daha dəqiq desək, Rusiya-Ukrayna müharibəsinin də əsas səbəbi Rusiyanın bu böyük geosiyasi layihəsini həyata keçirməklə bağlıdır. Ukrayna postsovet məkanında geostrateji əhəmiyyətinə görə mühüm dövlətlərdən biridir. Ukrayna Rusiya siyasətinə tabe etdirilsəydi, Rusiya Ukraynada özünün strateji məqsədlərinə nail olsaydı, təbii ki, Rusiya hakimiyyətinin qeyd olunan SSRİ-ni bərpa etmək layihəsini daha asan, uğurla həyata keçirə bilərdi. Mən artıq bunu keçmiş zamanda deyirəm, çünki hesab edirəm, Rusiyanın Ukraynanı tam olaraq ələ keçirib öz siyasətinə tabe etdirməsi mümkün deyil".

M.Məmmədli Lukaşenkonun digər postsovet respublikalarının da bu ittifaqa qoşulması ilə bağlı irəli sürdüyü ehtimalla-



## Azərbaycan bu birliyə qoşulacaq?

ra fərqli aspektdən yanaşıb. "Əksinə, hesab edirəm, Ukraynada baş verən müharibədə Rusiyanın uğursuzluqları, eyni zamanda, müstəqil dövlətə qarşı aqressiyası digər postsovet ölkələrinin də Rusiyaya münasibətdə daha ehtiyatlı siyasət yürütməsinə rəvac verəcək və gözləmirəm ki, həmin ölkələr gələcəkdə bu ittifaqa həvəslə qoşulsunlar".

Siyasi analitik bildirir ki, Rusiyanın keçmiş SSRİ-ni bərpa etmək istəyinin taleyi bu gün Ukraynada həll olunur. Buna görə də Rusiya -Ukrayna müharibəsinin nəticələrini gözləmək lazımdır. Ancaq çox böyük ehtimalla, Rusiya öz planını həyata keçirə bilməyəcək". Lukaşenkonun Azərbaycanın prosesdən kənarda qalacağı ilə bağlı səsləndirdiyi fikirlərə gəlincə, M.Məmmədli bunu real hesab edir. Onun sözlərinə görə, Azərbaycanla Türkiyənin hərbi-siyasi müttəfiqliyi ölkəmizə qarşı bir sıra təhdidləri neytrallaşdırmaq gücündədir və ümid edirəm ki, Azərbaycan Rusiyanın hər hansı geosiyasi layihəsində iştirak etməyəcək.

"Bu, ölkəmizin maraq və mənafelərinə uyğun deyil. Yəni, müstəqil olduqdan sonra ölkəmizin həyata keçirdiyi siyasətin mahiyyətinə və fəlsəfəsinə uyğun deyil. Biz bloklara, ittifaqlara qoşulmama siyasəti həyata keçiririk. Bu siyasət də tələb edir ki, Rusiyanın yaratdığı hər hansı bir ittifaqdan kənarda qalaq".

**■ Politoloq Rəşad Bayramov hafta.az-a şərhində bildirib ki, Lukaşenkonun "ittifaq dövləti" haqqında dedikləri yeni bir şey deyil. Onun sözlərinə görə, "Rusiya ilə birgə ittifaq dövləti" ideyası ortaya çıxandan bəri Lukaşenko bir neçə dəfə bu mövzuda açıqlamalar verib.**

"Bu isə Lukaşenkodan daha çox Putinin arzusudur və Rusiyanın son davranışları, Ukraynaya qarşı təcavüz, NATO-nin Şərqə doğru genişlənməsinə qarşı sərgilədiyi mövqe bunun ən bariz sübutudur. Hələ bir müddət əvvəl təhlükəsizliyi ilə bağlı tələblərlə çıxış edən Rusiya bununla bağlı ABŞ və daha sonra NATO və Avropa İttifaqı ilə müvafiq danışıqlar apardı və həmin danışıqlarda post-sovet ölkələrinin onun nəzarət zonasına aid olduğunu və heç kimə güzəştə getməyəcəyini rəsmi olaraq bəyan etdi. Rusiya bunu özünün təhlükəsizliyi və keçmiş sovet ölkələrinin NATO-ya üzvlüyünün yolverilməz olması ilə izah etsə də, məqsədin keçmiş imperiyanı bərpa etmək olduğu şübhə doğurmur".

R.Bayramov qeyd edir ki, Putinin ittifaqla bağlı planında yer tutan ilk ölkələr Belarus və Ukrayna idi. SSRİ-nin dağılması haqqında qərar məhz üç ölkə - Rusiya, Ukrayna və Belarus tərəfindən verilmişdi.

"1991-ci il dekabrın 8-də SSRİ-ni təşkil etmiş - Rusiya RFSR, Ukrayna SSR və Belarus SSR SSRİ-nin parçalanması haqqında istəklərini bildirdilər və bunun ardınca dekabrın 25-də Mixail Qorbaçov istefa verdi. Dekabrın 26-da isə Kreml üzərindən SSRİ-nin qırmızı bayrağı endirildi və beləliklə, 1922-ci il dekabr ayının 30-da yaranmış və 69 il mövcud olmuş SSRİ dağıldı. Rusiya ilk olaraq Belarusu özündən asılı vəziyyətə salmağa müvəffəq oldu və indi də hədəfdə Ukrayna var. Putin Ukraynanı işğal etməklə vaxtilə SSRİ-nin dağılmasına qərar vermis üç dövlətin birgə ittifaqına nail olmaq istəyir. Təbii ki, bundan sonra digər postsovet ölkələrinin də cəlb olunması üçün fəaliyyət planı var. Bu fəaliyyət planının detallarını isə Lukaşenko sizin də dediyiniz kimi, bir müddət əvvəl bu ilin əvvəlində açıqlamışdı.

Qazaxıstan hadisələrindən dərhal sonra açıqlama verən Lukaşenko Ukrayna və Qazaxıstanın ittifaq dövlətinə qoşulacağını iddia etmişdi və bildirmişdi ki, Türkmənistan, Özbəkistan və Tacikistan iqtisadi zərurəti nəzərə alaraq, Ermənistan isə gedəcək yeri olmadığı üçün yaradılacaq ittifaqa qoşulacaq.

O zaman Lukaşenko Azərbaycanın bu prosesdən kənarda qalacağını bəyan etmişdi. Bu da birbaşa Türkiyə-Azərbaycan arasındakı münasibətlərdən qaynaqlanır. Başqa sözlə, plan ondan ibarətdir ki, Ukrayna müharibə yolu ilə, Türkmənistan, Özbəkistan və Tacikistan iqtisadi təzyiqlər vasitəsilə, Ermənistan isə daxildəki rusiyayönümlü müxalifətin təzyiqləri ilə qurulacaq ittifaqa cəlb olunsun".

R.Bayramov hesab edir ki, bu ümidlərin özünü doğrultması mümkün deyil. Planın elə ilk mərhələsində, yəni Ukraynanın ram edilməsi mərhələsində Rusiya artıq məğlubiyyətə uğrayıb.

"Üstəgəl, elə bir hal yaranıb ki, Rusiya, hətta Ukraynanı tam işğal etsə belə, Gürcüstanda olduğu kimi, insanların elə nifrətini qazanıb ki, Zelenski deyil, bir başqası olsa da, Ukraynanın bundan sonra Rusiya ilə birgə olması mümkün deyil. İndi Ukraynaya təcavüz etməklə özünü bütün sivil dünyadan təcrid edən Rusiyanın nə Ukraynanı ram etmək imkanları, nə də sanksiyalar səbəbindən kiməsə iqtisadi cəhətdən təzyiq etmək imkanları var. Üstəgəl Qazaxıstan, Türkmənistan və Özbəkistana iqtisadi cəhətdən təzyiq göstərmək elə də asan məsələ deyil. Ortada həm Türkiyə faktoru, həm də Rusiya ilə müttəfiq olsa da, Orta Asiyada möhkəmlənmək istəyən və öz maraqlarını Rusiyaya qurban vermək istəməyən Çin faktoru var".

Azərbaycana gəldikdə isə politoloq hesab edir ki, Rusiyanın mövcud reallıqlarla barışdığını söyləmək hələ tezdir.

"Təbii ki, Rusiya imkanları daxilində sonadək bu istiqamətdə müəyyən addımlar atacaq. Türkiyə ilə müttəfiqlik və Azərbaycana qarşı yeganə təsir vasitəsi olan Qarabağ kartının tədricən Rusiyanın əlindən alınması onların reallıqla barışmağa məcbur olacağını deməyə əsas verir".

**■ Lukaşenkonun vaxtaşırı ittifaqın yaradılması ilə bağlı çıxışlar etdiyini söyləyən politoloq Samir Hümbətov hesab edir ki, onun son açıqlaması publikaya hesablanıb. Onun sözlərinə görə, bu fikirlərin arxasında Rusiya dayanır.**

Əslində, Rusiya Lukaşenkonun dili ilə rus, Belarus cəmiyyətinə mesaj ötürmək istəyir ki, qorxmurlar, axıra qədər dayanacaqlar. S.Hümbətov bildirir ki, heç də hər şey Lukaşenkonun deməsi ilə həll olunmur.

"Onun dediklərinin həyata keçməsi üçün şərait, iqtisadi, siyasi, mədəni, hərbi zəmin olmalıdır. Məsələ burasındadır ki, artıq 21-ci əsrdir və keçmiş SSRİ-yə daxil olan dövlətlərin hər biri özünün müstəqil iqtisadi istiqamətini müəyyənləşdirib.

Azərbaycan həm Qərblə, həm Şərqlə sıx əməkdaşlıq edir, Qoşulmama Hərəkatının həm üzvü, həm də sədridir. Qardaş Türkiyə ilə hərtərəfli müttəfiqlik, əməkdaşlıqlarımız var. Qardaş Pakistanla bu cür əməkdaşlığı davam etdirir. Bizə dost, müttəfiq olan İsraillə əməkdaşlığımız yüksək səviyyədədir.

Ukrayna ilə münasibətlər yüksək səviyədədir. Avropa ilə Azərbaycanın həm siyasi, həm də iqtisadi sahədə əməkdaşlığı mövcuddur... Yəni bu gün Azərbaycan kimi dövlətləri asanlıqla ram etmək, hansısa ittifaq çərçivəsinə salmaq olmaz. Azərbaycan ittifaq çərçivəsinə girmək istəsəydi, bununla bağlı Avropa İttifaqına müraciət edərdi.

Azərbaycanın bütün resursları, parametrləri var, Azərbaycanın enerji sektorunda inkişafı Avropa üçün böyük bir şans yaradardı. Azərbaycan balanslı siyasət aparan, regionda və dünyada kifayət qədər nüfuz qazanmış bir dövlətdir. İdarəetmə sisteminin təkmilləşdirilməsi gündən-gündən davam edir və belə faktorların qarşısında Azərbaycanın hansısa bir ittifaqa girməsi maraqlı deyil". Politoloq bu mənada qeyd edir ki, Lukaşenkonun verdiyi mesajlar rus, Belarus cəmiyyətlərinə hesablanmaqla yanaşı, populizmdən irəli gələn açıqlama və həm də psixoloji basqıdır. "Rusiya Ukraynada müharibəni udacaqmı, bu da hələ müəmmalıdır və gedişat da onu göstərir ki, Rusiya uduzmağa doğru gedir. Eyni zamanda nə Azərbaycan əvvəlki Azərbaycandır, nə də dünya əvvəlki dünyadır. Ona görə də irəli baxmaq lazımdır".

*✍ Tahirə*

"

*Rusiyanın Ukraynanı tam olaraq ələ keçirib öz siyasətinə tabe etdirməsi mümkün deyil*

*Türkiyə ilə müttəfiqlik və Azərbaycana qarşı yeganə təsir vasitəsi olan Qarabağ kartının tədricən Rusiyanın əlindən alınması onların reallıqla barışmağa məcbur olacağını deməyə əsas verir*

*Bu gün Azərbaycan kimi dövlətləri asanlıqla ram etmək, hansısa ittifaq çərçivəsinə salmaq olmaz*

# Xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir

***Bu günlərdə Şuşada dünya azərbaycanlıları bir araya gəldi. Prezident İlham Əliyevin iştirakı ilə Zəfər Qurultayı keçirildi. Qurultayda diasporumuz qarşısında yeni hədəflər və vəzifələr müəyyənləşdirildi. Qurultayda iştirak edən diaspor təmsilçilərimiz gələcək fəaliyyətləri, təəssüratlarını hafta.az-a bölüşüblər.***

## Diaspora




**■ Naibə Haciyeva, Alman Azərbaycan Dostluq Cəmiyyətinin sədri:**

- Almaniyada yaşayıb-fəaliyyət göstərdiyim bütün dövrlərdə Azərbaycana səfərlər edir, doğma yurd yerimə baş çəkir, Vətənimlə həsrətimi bölüşürdüm. Budəfəki ziyarətim tamamilə fərqli idi və bu fərqlilik özündə elə bir möhtəşəmlikləri birləşdirmişdi ki, bunu sözlə ifadə etmək həqiqətən də çətindir. Hər bir azərbaycanlının qəlbində ən dərin həsrət Qarabağla bağlı idi və bu həsrətin nə vaxtsa başa çatacağına inanırdıq. Bilirdik, əmin idik ki, məhz dünya şöhrətli siaysi xadim, ulu öndər Heydər Əliyevin layiqli və siyasi varisi cənab İlham Əliyev Ali Baş Komandan və xalqının Lideri qismində 30 ilə yaxın dövr ərzində təcavüzə uğrayan, işğala məruz qalan torpaqlarımızı düşmən tapdağından azad edəcək. Onun möhkəm qətiyyəti, sarsılmaz iradəsi, diplomatiyası, müdrikliyi, xalqına bağlılığı 44 günlük Zəfər yürüşündə öz qalibiyyət sözünü dedi. 44 günlük Vətən müharibəsində düşmənə layiq olduğu cavablar verən Silahlı Qüvvələrimiz dünyanın hərb tarixinə yeni epos, dastan yazdı. Allah şəhidlərimizə rəhmət eləsin, onlar əbədidirlər və ölməzdirlər!

Vətən müharibəsindən sonra azad Şuşamızda, Dünya Azərbaycanlılarının V Qurultayında iştirak etməkdən çox qürurluyam. Bu möhtəşəm tədbirdəki çıxışında Prezident İlham Əliyev bundan sonra Azərbaycan xalqının müzəffər yaşayacağını, dövlətimizin qalib dövlət kimi sonsuzadək var olacağını bir daha bəyan etdi. "Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün.

Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər".

Prezident dedi ki, bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir və onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir.

Qarşıdakı illərdə dünyada yaşayan azərbaycanlılar bilavasitə dövlət başçımızın verdiyi tövsiyə və tapşırıqları əsasında diaspora işimizi daha da dərinləşdirəcək, Azərbaycanın Avropa ölkələrində tanıdılması üçün yeni layihələrlə, böyük tədbirlərlə çıxşı edəcəkdir. Ölkəmizin, xalqımızın tarixini, mədəniyyətini, siyasətini təbliğ etmək üçün var gücümüzlə çalışacağıq. Hər il olduğu kimi, bu il də Alman-Azərbaycan Dostluq Cəmiyyəti olaraq qarşımıza bir sıra məqsədlər qoymuşuq və təqdim edəcəyimiz layihələrimizdə qeyd olunan bütün əsas faktorları, millilik ruhumuzu daimi olaraq öndə tutacağıq.



**Naibə Haciyeva,**
Alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri

"

*Ölkəmizin, xalqımızın tarixini, mədəniyyətini, siyasətini təbliğ etmək üçün var gücümüzlə çalışacağıq*

**■ İlkanə Yusifova, Niderland Belçika Koordinasiya Şurasının əlaqələndirici üzvü, "Birlikdə Güclüyük" Fondunun sədri:**

- Mən qarabağlıyam, Ağdamda doğulub boya-başa çatmışam. Torpaqlarımız işğaldan azad olunandan sonra ilk dəfə Ağdama səfərə gəldim. Bu il isə ilk dəfə Şuşada - Zəfər Qurultayında iştirak etdim. İşğaldan azad olunan bu torpaqlar hər birimiz üçün əzizdir, müqəddəsdir. Tək II Qarabağ savaşında 3 mindən çox igid oğullarımız şəhid oldu. Qardaşım Teymur Yusifov 1994 -cü ildə Ağdam döyüşlərində şəhid olub. 30 il ərzində işğalda qalan bu torpaqlarımızı məhz birliyimiz, vahid gücümüzün sayəsində azad etdik, qalib olduq. Məhz bu faktlar Şuşa Qurultayında iştirak edən dünya azərbaycanlılarının üzərinə böyük məsuliyyət yükü qoyur. Şəhidlərimizin ruhu, tarixi torpaqlarımızın ruhu bizi bu vətəndə səfərbər edir.

Eyni zamanda bir daha yəqin etdik ki, yalnız vahid güc, Dəmir Yumruq olaraq Azərbaycan həqiqətlərini dünyaya çatdıra bilərik. Azərbaycanlılar dünyada bir yumruq olub öz diaspora fəaliyyətinin gücünü artıra bilər. Düşünürəm, bir olmağın zamanı bu gündür, bir yumruqla, bir nöqtəyə vurmağın zamanı bu gündür. Şuşaya olan bu səfərdən həm qürurlandım, həm də təsirləndim. İşğalçılar Şuşanın tarixi abidələrini, məscidləri, karvansaraları, evləri, yolları dağıdıblar. Uşaqlıq illərində Şuşada gördüyüm köhnə evlərdən demək olar ki, heç nə qalmayıb.

Şuşada dünya azərbaycanlılarının toplanması düşmənə verilən tarixi bir mesajdır. Dağıdılmış abidələrə, evlərə baxanda onlara veriləcək bir sual yaranır: əgər iddia etdiyin kimi, Qarabağ sənin torpağın idisə, sənin evin idisə, niyə dağıdırdın, yandırırdın, qırırdın? Ora öz evi olsaydı dağıtmazdı. Bu, əlbəttə ki, onların xislətini göstərir. Biz isə bu gün öz evimizə gəlmişik və bir daha buradan deyirik ki, onu abadlaşdıracağıq. Prezidentin Şuşaya gəlişi xüsusilə çox böyük əhəmiyyət kəsb edir. Bu, bizim mesajımızı daha da gücləndirdi. Dünyanın hər yerindən gəlib "Qarabağ Azərbaycandır!" deyirik. Biz ev sahibi kimi geri qayıdıb torpağımıza sahib çıxdıq. Prezident yenə mesajlar verdi. Dedi ki, "Qarabağ Azərbaycandır!", Azərbaycanın bütövlüyü üçün əlimizdən gələni edəcəyik. İndi bizə kiməsə sübut etmək lazım deyil ki, Qarabağ Azərbaycandır! Artıq biz səsimizi xaricdə eşitdirdik. Bir daha xaricdə sübut etməliyik ki, ölkəmizin tarixi daha zəngindir, daha qədimdir".

Prezidentin tövsiyələrindən biri də Azərbaycan dilinin, mədəniyyətinin təbliğidir. Orada olan qarışıq, yaxud azərbaycanlı ailələrin bu haqda məlumatı yoxdur. Mən buradan Niderland Krallığında yaşamağa gedirəmsə, orada çalışıramsa, oranın mədəniyyətini öyrənirəm.

İşgüzar insanam. Övladımı məktəbdən sonra görürəm. Mənim övladım artıq məktəbdə o dili öyrənir, o yerlərin mədəniyyətini, davranış qaydalarını mənimsəyir. Ona azərbaycançılığı öyrətmək mənim vəzifəmdir. Deyim ki, bəzən bu vəzifəni düzgün yerinə yetirə bilmirəm. O üzdən Azərbaycanı Avropada təbliğ edən mərkəzlərin, icmaların yaradılması vacibdir. Bir yerə yığılıb işlər görmək də vacibdir. Bu istiqamətdə düşünməyə başlamalıyıq.

Diasporaların fəaliyyəti ilə bağlı özümüzə çox tənqidi yanaşırıq. Diasporalara qarşı tənqidi yanaşmalardan çox, daha yaxşı işlər görmək üçün müsbət motivasiyaya köklənməliyik. Nəzərə almaq lazımdır ki, Azərbaycan diasporası çox gənc bir qurumdur. Gənc təşkilatın bir inkişaf prosesi var. Biz diaspora işinə Sovetlər birliyi dağılandan sonra 20-30 ildir başlamışıq. Düşünməliyik ki, kimin hansı qabiliyyətləri var və kim hansı töhfəni verə bilər. Və problemləri necə çözmək üçün birliyimizi qorumalıyıq.



**İlkanə Yusifova,**
Niderland Belçika Koordinasiya Şurasının əlaqələndirici üzvü, "Birlikdə Güclüyük" Fondunun sədri

"

*Diasporalara qarşı tənqidi yanaşmalardan çox, daha yaxşı işlər görmək üçün müsbət motivasiyaya köklənməliyik*

*✍ Tahirə*

# Səhiyyə sistemində yenilik

**Azərbaycanda səhiyyə işçilərinin sosial rifahı daha da yaxşılaşacaq. Qeyd edək ki, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası"na dəyişikliklər edilməklə 31 ixtisas üzrə çalışan həkimlərin aylıq əməkhaqlarının bütün məcburi tutulmalardan sonra net məbləğinin 1000 manata çatdırılması nəzərdə tutulur. İcbari Tibbi Sığorta üzrə Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlərin həyata keçirildiyini bildirib:**



## Qərar

"Bu, səhiyyə işçilərinin əməyinin ödənilməsi qaydasına cari il üzrə edilən sayca 5-ci dəyişiklikdir. Çalışırıq, tibbi xidməti alan tərəf məmnun olduğu qədər xidməti verən tibb işçiləri də icbari tibbi sığortanın tətbiqindən razı qalsın. Məqsədimiz tibb işçilərinin sosial rifahını yaxşılaşdırmaq və tibbi xidmətləri vətəndaşlara əlçatanlığı təmin etməkdir. Hazırkı artım 31 ixtisas üzrə çalışan 8 minə yaxın həkimə şamil olunacaq. 17 ixtisas üzrə çalışan həkimlərin maaşında artım 2 dəfəyədək təşkil edəcək. 14 ixtisas üzrə çalışan həkimin maaşında isə artım 20-90% arası dəyişəcək. Maliyyə imkanları artdıqca çalışacağıq ki, səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydasına yenidən baxaraq onların sosial müdafiəsini daha da gücləndirək".

Onun sözlərinə görə, Agentlik tibb işçilərinə güzəştli ipoteka kreditlərinin verilməsi ilə bağlı da təklif hazırlayıb: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi güzəştli ipoteka krediti və sosial mənzil almaq hüququ verilən şəxslərin siyahısına dövlət tibb müəssisələrində çalışan tibb işçilərinin əlavə edilməsi ilə bağlı təklif hazırlayıb. "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na təklif olunan dəyişikliklər tibb işçilərinin mənzilə olan tələbatının ödənilməsi və onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədi daşıyır. Təklifdə güzəştli ipoteka kreditindən istifadə etmək hüququ əldə etmək üçün gənc ailənin üzvü olaraq ən az 3 il dövlət tibb müəssisələrində tibbi fəaliyyətlə məşğul olmaq tələbi var. Eyni zamanda gənc ailənin üzvü olmayan tibb işçilərinin güzəştli ipoteka kreditindən yararlanması üçün ən az 15 il dövlət tibb müəssislərində tibbi fəaliyyətlə məşğul olmaq tələbi irəli sürülüb. Təklif artıq aidiyyəti dövlət orqanlarına və qurumlarına təqdim olunub. Sənəd qəbul olunduğu təqdirdə dövlət orqanlarının nəzdindəki tibb müəssisələrində çalışan həkimlər, orta və kiçik tibb işçiləri (tibb müəssisəsinin rəhbəri istisna olmaqla) güzəştli ipoteka kreditindən yararlanmaq imkanı əldə edəcəklər".

> *Tibb işçilərinin əməkhaqqı digər sahələrdə çalışanların əməkhaqqı ilə müqayisədə aşağı idi*

■ **Məsələni hafta.az-a şərh edən səhiyyə sahəsi üzrə ekspert İlqar Hüseynli deyib ki, nəzərdə tutulan yeniliklər tibb işçilərinin sosial rifahının daha da yaxşılaşdırılmasına imkan yaradacaq:** "Biz bu yenilikləri gözləyirdik. Çünki tibb işçilərinin əməkhaqqı digər sahələrdə çalışanların əmək haqqı ilə müqayisədə aşağı idi. Amma burada problem odur ki, məsələyə selektiv yanaşma var. Çox yaxşı olardı ki, bu məsələ ixtisas yönümündən asılı olmayaraq bütün xidmət kateqoriyasını əhatə edərdi. Yəni, hər bir tibb işçisinə aid olardı. O ki qaldı güzəştli ipoteka məsələsinə, düşünürəm ki, bu yenilik tibb işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün geniş imkanlar yaradacaq. Bu o deməkdir ki, tibb işçilərinin də ölkədə aparılan sosialyönümlü layihələrə əlçatanlığı təmin olunacaq. Hesab edirəm ki, ölkəmizdə kifayət qədər gənc tibbi kadrlara ehtiyac var. Bizdə gənc tibb kadrlarının böyük əksəriyyəti Almaniya və digər ölkələrə üz tuturdular. Bunun ilk səbəbi də ondan ibarət idi ki, təklif olunan əmək haqqı aşağı idi və tibb işçilərinin sosial layihələrə əlçatanlılığı yox dərəcəsindəydi. Əgər biz bu yenilikləri uğurla tətbiq etmiş olsaq, o zaman tibb kadrlarının xaricə axınının da qarşısını almış olacağıq".

✍ *Sevinc*

# "Ukraynada heç bir ayrı-seçkilik hiss etməmişik"



**Elşad Ələsgərov,**
Ukraynanın İvano-Frankovsk vilayətindəki Azərbaycan diasporunun rəhbəri

**"Ukraynadakı Azərbaycan diasporu dünyanın əksər digər ökələrindəki diasporlarından daha sərbəst və aktiv fəaliyyət göstərir".**

Bu fikri hafta.az-a açıqlamasında Ukraynanın İvano-Frankovsk vilayətindəki Azərbaycan diasporunun rəhbəri Elşad Ələsgərov söyləyib. "Artıq 30 ilə yaxındır yaşadığım Ukraynada indiyədək konkret ukrayınlar tərəfindən heç bir ifrat millətçilik, ayrı-seçkilik hiss etməmişəm. Mən uşaqlıqda da yay tətillərində gəlib Ukraynada rəhmətlik atamın dostlarının yanında qalmışam. Ancaq qətiyyən hansısa ayrıseçkilik, mənfi münasibət duymamışam. Ukrayna xalqı barədə "banderaçı"lar, "benderlər" kimi ifadələr digər xalqların, o cümlədən rusların beyninə sovet dövründən bəri yeridilmiş ifadələrdir. Bəziləri bu ifadəni bir millət, toplum adı kimi qəbul edir. Amma bu, çoxlarına bir "faşist", "terrorçu" kimi tanıdılan, əslində isə sovet-rus müstəmləkəçiliyinə qarşı mübarizə aparan bir siyasi xadim olmuş Stepan Banderanın adıyla bağlıdır. Mən keçmiş SSRİ-nin bir çox respublikalarında, eləcə də Rusiya və Belarusda olmuşam. Əminliklə deyərdim ki, Ukraynada azərbaycanlılara qarşı olan səmimi hörmət, qayğı, diqqət heç bir digər respublikada yoxdur. Və zənnimcə, Ukraynadakı Azərbaycan diasporu dünyanın əksər digər ökələrindəki diasporlarından daha sərbəst və aktiv fəaliyyət göstərir. Bu, özünü müharibədən az öncə diasporumuzun Kiyevdə keçirilmiş qurultayında da göstərdi.

Orada bir çox rəhbər şəxslər, Radanın deputatları iştirak edirdi. Bir sözlə, bizə qarşı daim gözəl münasibət olub və bu gün müharibə gedən günlərdə də Azərbaycan dövlətinin, xalqının Ukraynaya verdiyi dəstəyin müqabilində həmin münasibət daha da möhkəmlənib"- deyə həmsöhbətimiz vurğulayıb.

> *Əminliklə deyərdim ki, Ukraynada azərbaycanlılara qarşı olan səmimi hörmət, qayğı, diqqət heç bir digər respublikada yoxdur*

✍ *Sultan Laçın*

# Ərzaq təhlükəsizliyimiz necə təmin edilir?

***Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonra buğda və digər dənli bitkilərin qiymətləri artmaqda davam edir. Mövcud vəziyyət uzanarsa, dünyanın ən böyük taxıl ixracatçıları olan iki ölkənin taxıl ticarətində problemlər yarana bilər. Buna görə də mütəxəssislər bəzi ölkələrin ərzaq çatışmazlığı yaşayacağını bildirirlər.***



## Çağırış



**Fuad İbrahimov,**
iqtisadçı ekspert

Hazırda daha çox unla bağlı çətinliklərin yaranacağı deyilsə də, digər məhsullarda da ərzaq böhranının olması istisna deyil. Bəs görəsən, belə vəziyyətdə ölkəmizi hansı çətinliklər gözləyir? Azərbaycanda ərzaq qıtlığı yaranması ehtimalı varmı? Daha çox hansı qida məhsulları ilə bağlı çatışmazlıq yaşana bilər?

■ **İqtisadçı ekspert Fuad İbrahimov hafta.az-a bildirdi ki, sözügedən məsələ hazırda bütün dünyanın qlobal problemidir. Bunu son illərdə artan qiymətlərdə müşahidə edə bilərik:**

"Ərzaq qıtlığı ilə bağlı BMT-nin Ərzaq Təhlükəsizliyi proqramı əsasında tərtib etdiyi cədvəllərə diqqət etsək görərik ki, son on il ərzində ciddi qiymət artımı baş verib. Əsas səbəb dünyada ərzaq məhsullarının azalmasıdır. Ukrayna və Rusiya arasında baş verən müharibə bu prosesi bir qədər də sürətləndirib. Bilirik ki, Rusiya dünyanın 1 nömrəli taxıl ixracatçısıdır. Ukrayna isə bu baxımdan 5-ci yerdədir. Hər iki ölkə istehlak səbətinə daxil olan əsas qidaların istehsalı və dünyaya çıxarılması üçün önəmli paya sahibdir".

Ekspert qida təhlükəsizliyindən danışarkən, "Azərsun"un emal zavodunda baş vermiş yanğının yarada biləcəyi çətinliklərə diqqət çəkdi: "Ölkəmiz mövcud vəziyyətə adekvat reaksiya verməlidir. Hökumət tərəfindən müvafiq tədbirlər görülür. "Azərsun"un yağ emalı zavodu yerli tələbatın ödənilməsində çox mühüm rol oynayır. Məhz burada baş verən yanğın daxili bazarda müxtəlif çətinliklərə yol açacaq. Hökumət bunun qarşısını almaq üçün bir sıra addımlar atır. Gömrük rüsumunda müəyyən güzəştlər edir. Bu yolla idxala imkanlar yaradır". F.İbrahimov qeyd edir ki, ölkəmiz qida təhlükəsizliyi ilə bağlı həll edilməyəcək çətinliklər yaşamır: "Hökumət məsələ ilə bağlı qabaqlayıcı tədbirlər görür. Gələcəkdə qıtlıq yarana biləcək 28 çeşiddə məhsulun ixracına ciddi nəzarət olunur. Taxıl ehtiyatlarımız kifayət qədərdir. Bununla belə əsas taxıl tədarükçülərimiz olan dövlətlərin müharibə etməsi səbəbindən, alternativ bazarlarla danışıqlar aparılıb. Yerli məhsuldarlığın artırılması üçün Kənd Təsərrüfatı Nazirliyinə tapşırıqlar verilib. Deyə bilərəm ki, qida təminatı ilə bağlı dövlət ciddi işlər görür".

> *Ölkəmiz qida təhlükəsizliyi ilə bağlı həll edilməyəcək çətinliklər yaşamır*

Ərzaq təhlükəsizlyinin davamlı olaraq möhkəmləndirilməsi Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritetlərindəndir. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən hafta.az-a verilən məlumatda bildirilib.

Qeyd edilib ki, bu strateji məsələ daim diqqətdə saxlanılır və ərzaq ehtiyatlarına xüsusi önəm verilir: "Dünyada neqativ meyillərin baş verdiyi, COVID-19 infeksiyasının geniş yayıldığı dövrlərdə də qabaqlayıcı və sistemli tədbirlər nəticəsində ölkəmizdə istehsal-tədarük-istehlak zəncirində heç bir fasilə müşahidə edilməyib, ərzaq məhsullarının çeşidində və istehlakçıların təminatında hər hansı qırılmalar olmayıb. Bütün bunlar isə, ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsi istiqamətində aparılan düzgün və məqsədyönlü siyasi kursun məntiqi nəticəsidir.

Dünya iqtisadiyyatının bir sıra sınaq və çətinliklərlə üzləşdiyi, iqlim dəyişikliyi, enerji, maliyyə, qida və digər bazarlardakı dalğalanmaların müşahidə edildiyi hazırkı dövrdə ərzaq ehtiyatlarının strateji əhəmiyyətini nəzərə alaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti əsas ərzaq məhsulları üzrə ehtiyatların mütəmadi monitorinqini aparır, əhalinin qida məhsulları ilə təminatına ciddi nəzarət edilir. Nəzarət tədbirləri dövlət qurumlarının koordinasiyası və dövlət-özəl tərəfdaşlığı prinsiplərinə əsasən keçirilir".

"Bununla belə, son günlər kütləvi informasiya vasitələrində bəzi ərzaq məhsullarının ehtiyatı ilə bağlı müxtəlif məlumatlar yayımlanır. Bir daha bildiririk ki, ərzaq ehtiyatları daim dövlətin nəzarətindədir və hər hansı hadisənin ərzaq qıtlığına səbəb olacağı ilə bağlı yayılan məlumatların heç bir əsası yoxdur", - deyə məlumatda bildirilib.

✍ *Banu*



■ **Bakı şəhərinin Səbail rayonu ərazisində hərbi sursat aşkar edilib. Məlumatla əlaqədar dərhal Fövqəladə Hallar Nazirliyi Xüsusi Riskli Xilasetmə Xidmətinin (XRXX) minalardan təmizləmə üzrə çevik qrupu hadisə yerinə cəlb edilib.**

Hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra hadisə yerinə baxış zamanı aşkar edilmiş sursatın bir ədəd döyüş tətbiqinə yararlı F-1 əl qumbarası olduğu müəyyən edilib. Sursat XRXX-nin çevik qrupunun mütəxəssisləri tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülərək kənarlaşdırılıb. Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar edilməyib.



■ **Xəzər dənizində suya atılmış 6 ədəd böyük gəmi minası tapılıb. "Umıd Babek Operating Company" əməliyyat şirkətinin Azərbaycandakı filialı tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda aparılan ərazi kəşfiyyatı zamanı suyun 60 metrədək dərinliyində naməlum obyektlər aşkar edilib.**

Aşkarlanmış minaların cari il mayın 9-dan etibarən hava şəraitindən asılı olaraq təhlükəsizlik tədbirlərinə əməl edilməklə digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə zərərsizləşdirilməsi və axtarış tədbirlərinin davam etdirilməsi planlaşdırılıb. Minaların aşkarlandığı ərazi təhlükəsizlik məqsədilə gəmi sürücülüyü üçün müvəqqəti bağlanılıb. Xəzər dənizinin Azərbaycan sektorunda mülki təyinatlı işlər adi qaydada davam etdirilir.



■ **"Ötən ildən başlayaraq Avropa İttifaqı və Azərbaycan arasında tərəfdaşlıq əlaqələri daha da güclənməyə başlayıb".**

Bunu Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Peter Mixalko bildirib. Səfir qeyd edib ki, ötən il bir sıra önəmli səfərlər qeydə alınıb: "Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Aİ komissarı Oliver Varheli Bakıya səfər edib. Ötən ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə Şərq Tərəfdaşlığı sammitində iştirak edib. Biz Aİ və Azərbaycan arasında yeni saziş üzərində işləri davam etdiririk. Aİ Azərbaycan məhsulları üçün əsas ixrac bazarı olaraq qalır. Hazırda Azərbaycandan ixrac olunan məhsulların 51%-i məhz Aİ bazarlarına ixrac olunur.



■ **UNICEF-in dəstəyi ilə "Ana və uşaq sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2022-ci illər üçün Dövlət Proqramı"na əsasən Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Respublika Perinatal Merkəzi və Sumqayıt Perinatal Mərkəzində həkim neonatoloqlar tərəfindən "Neonatal skrininq" həyata keçirilməyə başlayıb.**

UNİCEF Azərbaycan-dan hafta.-az-a verilən xəbərə görə, neonatal skrininqlərdə - topuq testi götürülərək irsi xəstəliklərin diaqnostikası aparılır. Müayinə nəticəsində xəstəlik aşkar olunduqda və ya şübhəli testlərdə ailə ilə əlaqə saxlanılaraq aidiyyatı ilkin səhiyyə müəssisəsinə məlumat verilir.



■ **Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" studiyasında Azərbaycanın Milli Qəhrəmanlarına həsr olunmuş sənədli filmlərin istehsalı davam edir.**

"Azərbaycanfilm" Kinostudiyasından hafta.az-a verilən xəbərə görə, "Poladın izi ilə" adlanan sonuncu film Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimova həsr olunub. 2020-ci il iyulun 14-də Tovuz istiqamətində baş verən şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən qəhrəmancasına şəhid olmuş general-mayor Polad Həşimov haqqında çəkilmiş filmin rejissoru və ssenari müəllifi Zamin Məmmədov, görüntü rejissoru Fahir İmanquliyev, məsləhətçisi Vüqar Əsgərov, montaj edəni Sabir Əskərzadə, səs rejissoru Mehman Nadirov, prodüseri Nazim Hüseynovdur. Çəkilişlər Bakıda və Qəbələdə aparılıb.



■ **Ali təhsil müəssisələrinin mövcud yataqxana binalarının yenilənməsi istiqamətində görüləcək işlər açıqlanıb.**

Təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib ki, universitet yataqxanaları ilə bağlı 2 istiqamətdə iş görülür. "Birincisi, cari təmir formatında ali təhsil müəssisələri iş görür. Konkret olaraq bu il hansı universitetlərin yataqxanalarının təmirinə başlanılacaq deyə bilməyəcəyəm. Çünki bu, əsasən yay aylarında baş tutur və yataqxanaların bərpası ilə ali təhsil müəssisələri məşğul olur. İkincisi isə, Təhsil Nazirliyinin özünün müxtəlif ali təhsil müəssisələrinə beynəlxalq donor təşkilatları cəlb etməklə, dövlət-özəl partnyorluğu əsasında yataqxanaların yerinin və sayının artırılması istiqamətində iş görürük.

# Dünya - yeni epidemiya ilə üz-üzə

***Koronavirus pandemiyası başa çatmamış, indi də başqa bir virusun təhlükəsinə yaxalanmışıq. Xüsusilə də 1-10 yaş arası uşaqlar arasında sürətlə yayılan və öldürücü təsiri böyük olan bu xəstəlik qaraciyərdə yaranır. Hələlik xarakteri və yaranma səbəbi məlum olmadığından virus tibb elmi üçün sirli olaraq qalır. İlk olaraq Böyük Britaniyada təsbit edildiyi deyilən sirli virus indiyədək 13 ölkədə yayılıb. Sirli hepatit virusu səbəbindən, artıq bir nəfər dünyasını dəyişib. Tibb alimlərinin fikrincə, azyaşlılar aarsında yayılan sirli hepatitin yaranmasına adenovirus səbəb ola bilər.***



## Araşdırma

Qeyd edək ki, indiyədək dünyada 200-ə yaxın belə xəstə müəyyən edilib. Onlardan 114 nəfəri müalicə olunarkən, 10 uşağın üzərində məcburiyyətdən qaraciyər transplantasiyası aparılıb. Liverpul Universitetinin yoluxucu xəstəliklər professoru Kalum Semple qeyd edir ki, "Adenorivus", "COVID-19" pandemiyası zamanı tətbiq edilən tədbirlərə görə demək olar ki, yoxa çıxmışdı və görünür, indi dalğa ilə geri dönüb. Mütəxəssislər simptomları olan uşaqların 48 saat məktəbə göndərilməməsi lazım olduğunu, əlyuma kimi gigiyena tədbirlərinin virusların yayılmasını azaldacağını vurğulayırlar.

Sirli hepatitdən danışan professor Onur Yaprakın fikrincə, qısa müddətdə 13 ölkəyə yayılan sirli hepatitin 41-ci tip adenovirusla əlaqəsi olsa da, səbəbi hələ də tapılmayıb. Hepatit A, B, C, D, E virusları kimi yeni əlifba hərfini götürəcək virusun aşkar olunmayacağını heç kim iddia edə bilməz. Həmçinin, hepatitə səbəb olan viruslardan birinin məsum bir kursla mutasiyaya uğrama ehtimalı da diqqətdən kənarda qalmamalıdır.

Ümumdünya Səhiyyə Təşkilatının "müəyyən edilməmiş" olaraq xarakterizə etdiyi virusun uşaq və gənclərdə qaraciyər transplantasiyasına mənfi nəticələrə səbəb ola biləcəyini ifadə edən professor Yaprak "Xəstəliyin səbəbi ilə bağlı konkret fakt tapılmasa da, son araşdırmalar onu 41-ci tip adenovirusla əlaqələndirir", - deyib. "Hepatit qaraciyərin iltihabı deməkdir; Viruslar, toksinlər, dərmanlar, otoimmun xəstəliklər kimi bir çox səbəbdən inkişaf edə bilər. Qaraciyərdə məskunlaşan və hepatitə səbəb olan beş virus müvafiq olaraq A, B, C, D və E viruslarıdır. Hepatit B və C-də əsas yoluxma yolu qan və iynələrdir. Hepatit A çirklənmiş su və qidadan keçir, Hepatit E isə qida ilə çirklənmə ilə yanaşı, çöl donuzu və maral kimi heyvanların ətinin yeyilməsi ilə yoluxur", - deyən professor Yapraka görə, qaraciyərdə məskunlaşan və hepatitə səbəb olan A, B, C, D və E virusları səbəbindən, hər il 1 milyon insan həyatını itirir. Bu viruslarla yanaşı, qaraciyərə yerləşməyən, qaraciyərə təsir edən viruslar da hepatitə səbəb ola bilər. Buna misal olaraq herpes, EBV, CMV, adenoviruslar, enteroviruslar, adətən, yuxarı tənəffüs yollarının infeksiyalarına və qastroenteritlərə səbəb olan qrip viruslarını göstərmək olar. Professor qeyd edir ki, bu viruslar adətən tənəffüs yolları və ya çirkli əllərimiz vasitəsilə orqanizmə daxil olur, qan və immun sistemi hüceyrələrini yoluxduraraq qaraciyərə təsir edir.

■ **Professor Onur Yaprak izah edir ki, hepatitin ən qorxulu nəticəsi qaraciyər çatışmazlığıdır. Kəskin qaraciyər çatışmazlığını əvvəllər heç bir qaraciyər xəstəliyi olmayan bir şəxsdə anidən başladığını təyin edən professor Yaprak bu vəziyyətin əsas səbəbləri arasında viruslar, toksinlər, metabolik xəstəliklər, dərman və kimyəvi maddələrə məruz qalma olduğunu bildirib.** Viruslara bağlı kəskin qaraciyər çatışmazlığında ölüm nisbətinin yüzdə otuza çata biləcəyini ifadə edən Yaprak hadisələrin yüzdə iyirmi beşində qaraciyər nəqlinin lazım olduğunu söyləyib. O, uşaqlarda kəskin qaraciyər inkişafına səbəb olan virusları aşağıdakı kimi sadalayıb: "Herpes daha çox körpə və yenidoğulmuş uşaqlara, EBV isə bir neçə yaşlı uşaqlar və yeniyetmələrə təsir göstərir. Uşaqlarda kəskin qaraciyər çatışmazlığı ilə əlaqəli digər viruslara adenovirus, dang qızdırması, enterovirus ailəsinin üzvləri və paramiksovirus daxildir. Sirli hepatitin viruslardan və ya toksinlərdən əmələ gəlib-gəlmədiyi, əgər virusdursa, bu vəziyyətə hansı virusların səbəb verməsi ilə bağlı araşdırmalar davam edir. İlkin tapıntılar klassik hepatit viruslarından daha çox adenovirus növü olan "Adenovirus-41"in bu mənzərəyə səbəb olması ehtimalını gücləndirir. Çünki 169 uşaqdan 74-də adenovirus infeksiyası aşkar edilib. Bununla belə, məlum adenovirusların illərdir mövcud olmasına baxmayaraq, belə kütləvi hepatitə səbəb verməmiş olduğu üçün daha geniş araşdırmaya ehtiyac var. Bu baxımdan xəstələnən və qaraciyər transplantasiyası əməliyyatı edilən uşaqlarda aparılacaq patoloji müayinə işıqlandırıcı olacaq".

Hepatitin sirrinin çox qısa vaxtda açılacağına ümid etdiyini bildirən Yaprak sözlərini belə tamamlayıb: "Hepatit virusları onillər əvvəl əlifbaya uyğun şəkildə - hərflərlə adlandırılıb və heç kim təminat verə bilməz ki, gələcəkdə əlifbanın daha çox hərfindən istifadə olunmayacaq. Həm də pandemiyada cəmiyyət mutasiya sözünü eşitdi. Hər kəs virusların zamanla mutasiyaya uğradığını bilir. Heç kim hepatit viruslarından birinin az ehtimalla da olsa, mutasiyaya uğrama ehtimalını nəzərdən qaçırmamalıdır".

■ **ABŞ-ın biotexnologiya firması Sana-da Gen Terapiyası və Virusologiya şöbəsinin direktoru Semih Tarin sirli hepatit hadisələri haqda danışarkən deyib ki, normalda qaraciyər çatışmazlığına yol açan hepatitin yaranmasına A, B, C və D virusları səbəb olur.**

Tədqiqatlar nəticəsində adenoviruslu insanların sayının üstünlük təşkil etdiyini qeyd edən Tarin "Bu, uşaqlarda adenovirusun aşkarlanması sual yaradır. Çünki adenovirus normal olaraq sağlam uşaqlarda qaraciyər hepatitinə səbəb olmur", - deyib. Adenovirusun indiyədək yalnız immun çatışmazlığı olan insanlarda hepatitə səbəb olduğunu vurğulayan Tarin bildirib ki, indiki yoluxmalarda immun çatışmazlığı yoxdur. Bu səbəbdən hepatit viruslarının tam olaraq haradan gəldiyi bilinmir.

> “
>
> *Hazırda kiçik uşaqlarda görülən və sürətlə qaraciyər çatışmazlığına səbəb olan bir klinik mənzərə var*

Sirli hepatit infeksiyalarında adenovirüs əlaqəsi ehtimalının yüksək ola biləcəyini ifadə edən Tarin də deyib ki, indiyədək əldə edilən dəlillər hadisələrin "Adenovirus 41"lə əlaqəli olduğunu göstərir, ancaq bu əlaqəni təsdiqləmək üçün araşdırmalar da davam edəcək.

Bəs bu xəstəlik epidemiyaya, daha sonra pandemiyaya səbəb ola bilərmi? Tarin sirli hepatit hadisələrinin yeni bir qlobal epidemiyanın səbəb olma ehtimalını zəif görür. "Hazırda narahatlıq üçün heç bir səbəb yoxdur, lakin eyni zamanda, hadisələrin dəqiq səbəbini də bilmirik. Bunu tezliklə öyrənəcəyik", - o deyib.

■ **Türkiyə Elmi Komitəsinin üzvü və KLİMİK Dərnəyinin sədri, professor Serap Şimşək Yavuz "Hazırda kiçik uşaqlarda görülən və sürətlə qaraciyər çatışmazlığına səbəb olan bir klinik mənzərə var.** Biz bunu adətən hepatit cədvəllərində görürük, lakin indiyədək bu cür virus görülməyib. Xəstəlikdən 1-5 yaş arası uşaqlar daha çox təsirlənir. Bir qrupda adenovirus, digər qrupda isə COVID-19 aşkar edilib. Bəzi fərziyyələr var. Biri uşaqların böyüklərə nisbətən COVID-19 virusuna daha yaxın vaxtlarda məruz qalması, digəri isə adenovirus və COVID-19-un birləşməsidir", - deyib.

■ **Mikrobioloq Tutku Taşkınoğlunun fikrincə, bu xəstələrdə məlum infeksion hepatit (hepatit A-E) ilə heç bir əlaqə qurulmadığı üçün yeni və ya fərqli bir virus ola biləcəyi vurğulanır.** "Xəstələrin heç birinə COVID-19 peyvəndi vurulmayıb və onların 77 faizində adenovirus aşkar edilib. Hazırda günahkar adenovirus kimi görünsə də, kliniki tapıntılar öyrəşdiyimiz mənzərəyə uyğun gəlmir.

Bu, COVID-19 da daxil olmaqla başqa bir infeksiyanın və ya ekoloji səbəbin ola biləcəyi ehtimalını artırır" deyən mikrobiloloqa görə, xəstəliyin ilkin əlamətləri aşağıdakılardır: tünd sarı sidik, qusma, gözlərin və dərinin saralması (sarılıq), qaşınma, əzələ və oynaq ağrıları, hərarət, zəiflik və yorğunluq, anoreksiya.

■ **Uşaq qastroenterologiya, hepatologiya və qidalanma mütəxəssisi, doktor Əsra Polat deyib ki, ishal, qusma, sarılıq və qaraciyər fermentləri yüksəlmiş uşaq xəstələrdə "COVID" tarixinin də araşdırılması lazımdır.**

Onun fikrincə, həm "COVID"in özünün, həm də bu aylarda uşaqlarda çox rast gəlinən digər virus infeksiyalarının qalıcı qaraciyər zədələnməsinə yol vermədən müalicəsi üçün valideynlərin diqqəti olması və həkimə müraciət etməsi lazımdır.

Əsra Polat deyib ki, məsələn, İngiltərədə son vaxtlar səbəbi təyin olunmayan hepatitlər, xüsusilə sarılıqla müraciət edənlərdə artım var. Bu naməlum hallar İngiltərədə qorxulu hala gəlib və araşdırmalar davam edir. Ancaq bunun səbəbini hələ də bilmirlər. Hamımızın bildiyi kimi, sarılıq, daha doğrusu qaraciyərin iltihabına səbəb ola biləcək bir çox amillər var. "Viral infeksiyalarda hepatit virusları, yəni qaraciyərə spesifik təsiri olan viruslar xaricində bir çox fərqli virus da qaraciyərə təsir göstərə bilir.

Bunlar sadə qaraciyər infeksiyasından (sadə hepatit) irəliləmiş xroniki hepatitə qədər inkişaf edə bilir və hətta orqan çatışmazlığına səbəb olaraq qaraciyər nəqlinə gətirib çıxarır. Bu səbəblərdən biri də "COVID-19" infeksiyasıdır. Koronavirus həyatımıza daxil olandan bəri çox şey öyrəndik. Xüsusilə də koronavirus hallarında qaraciyər tutulmasının olduğunu gördük. 2020-ci ilin sentyabr ayından etibarən koronavirusdan sonra inkişaf edən fərqli bir xəstəliklə qarşılaşdıq.

Bu, MİS-C infeksiyasıdır, yəni çoxiltihablı sindromdur. Uşaqlarda görülən MİS-C bir çox xəstədə çox səs-küylü idi. Burada izlədiyimiz və reanimasiya şöbəsində uzun müddət müalicə alan xəstələrimiz də vardı. "COVID" infeksiyasında, daha çox MİS-C infeksiyası zamanı qaraciyər fermenti dəyərlərində anormallıqlar aşkar etdik. Ancaq infeksiyanın idarə olunması ilə bu xəstələrin qaraciyər dəyərlərinin də sağaldığını gördük", - deyib Ə.Polat.

Ə.Polat deyib ki, bu cür infeksiya xüsusilə gözlərdə saralma ilə başlaya bilər. "belə halı hiss edən kimi həkimə müraciət edin. Çünki erkən diaqnoz bizim üçün hər zaman önəmlidir. "Covid" pandemiyası zamanı uşaqlarda bu infeksiyanın böyüklərə nisbətən bir az daha yüngül keçdiyini gördük. Onlar infeksiyaya yoluxduqlarını belə bilmirlər. Qaraciyər simptomları ilə gələn xəstələri qiymətləndirərkən, "COVID"in yaxın ailə tarixini mütləq şübhə altına almalıyıq. Çünki son vaxtlar "COVID" infeksiyası qaraciyər fermentinin açıqlana bilməyən yüksəlişinə və izah olunmayan sarılığa səbəb ola bilər", - deyib həkim.

Qeyd edək ki, bu günədək ABŞ, İngiltərə, İspaniya, İsrail, Danimarka, İrlandiya, İtaliya, Norveç, Fransa, Rumıniya, Belçika və Hollandiyada müşahidə edilən və səbəbi müəyyən edilə bilməyən hepatit hadisələri ən son Kanadada aşkarlanıb.

İndiyədək 13 ölkəyə yayılan virusa 200-ə yaxın uşaq tutulub. Xəstəliyin "müəmmalı" və "müəyyən edilməmiş" kimi səciyyələndirilməsi yeni qlobal epidemiya ehtimalını gündəmə gətirib. Çünki vaxtilə "COVID -19" da adı çəkilməzdən əvvəl "sirli ağciyər xəstəliyi" olaraq təyin edilmişdi.

✍ *Vüsal Tağıbəyli*

***Kreditlərin illik faiz dərəcələrinin yüksək olması zaman-zaman mətbuatda gündəmə gətirilən və həll olunmayan problemlərdən birinə çevrilib. Məsələ ilə bağlı bu günə qədər müxtəlif təkliflər səsləndirilsə də, təəssüflər olsun ki, ciddi addım atılmayıb. Üstəlik, kredit verən qurumlar, yəni banklar yüksək faiz dərəcəsinə baxmayaraq gəlirlərinin aşağı olmasından gileylənirlər.***




## İqtisadiyyat



**Əkrəm Həsənov,**
maliyyə məsələləri üzrə ekspert

> “
>
> *Kredit faizlərinin aşağı salınması üçün qorunan əmanətlərlə bağlı qərar olmalıdır*
>
> *Regionlarda yaşayan vətəndaşlarımız və iş adamlarımız daha yüksək faizlə kredit götürməyə məcbur qalırlar*

# Yüksəkfaizli kreditlər

Ölkəmizdə kredit faizlərinin aşağı salınmasında əsas maneə nədir? Bunun üçün hansı işlər görülməlidir? Ötən həftə Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin sədri Taleh Kazımov jurnalistlərə açıqlamasında maliyyə sisteminin yenilənməsi, o cümlədən bank faizlərində dəyişikliklərlə bağlı qanunvericilik bazasının hazırlandığını diqqətə çatdırıb.

■ **Hafta.az-a açıqlama verən maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov kredit faizlərinin yüksək olmasına səbəb olan 3 əsas amildən söz açdı.**

Ekspertin sözlərinə görə, banklarda kredit fazilərinin aşağı salınması üçün ilk növbədə qoyulan əmanətlərin faizləri endirilməlidir:

"Bu gün Azərbaycanda Əmanətlərin Sığortalanması Fondunun qərarına əsasən qorunan əmanət faizi 12%-dir. 12%-lə əmanət qəbul edən bank necə aşağı faizlə kredit versin? Ona görə də kredit faizlərinin aşağı salınması üçün qorunan əmanətlərlə bağlı qərar olmalıdır". Ə.Həsənov problemin həm də Mərkəzi Bankla əlaqələndirib:

"Mərkəzi Bank uçot dərəcəsi ilə bütün banklara bərabər şəkildə kreditlər verməlidir, ancaq vermir. Bu gün Mərkəzi Bankın kreditləri qeyri-şəffafdır. O, istədiyi banka kredit verir, istədiyi banka isə vermir. Mərkəzi Bankın uçot dərəcəsi 7,75%-dir. Prinsipcə bu, ucuz kreditdir, amma hər banka çatmır. Hər bank bu krediti ala bilsə, təbii ki, onlar arasında rəqabət olacaq və faizlər aşağı düşəcək. Bu barədə də qərar olmalı və Mərkəzi Banka müvafiq tapşırıq verilməlidir".

Müsahibimizin sadaladığı amillərdən üçüncüsü isə məhkəmə sistemi ilə bağlıdır:

"Banklar bilirlər ki, onlar verdiyi kreditlərlə bağlı problemlərlə qarşılaşacaqlar.

Vətəndaş krediti ödəməyəcək, iş məhkəməyə qədər uzanacaq. Beləliklə, problemli kreditlərlə bağlı vəkilə və s. əlavə xərclər çıxacaq. Ona görə də banklar bütün bu məsrəfləri öncədən nəzərə alıb, verdiyi kreditin üzərinə faiz şəklində əlavə edir".

Qeyd edək ki, hazırda banklarda nağd kreditlər üzrə faiz dərəcəsi ortalama 15-25 faiz arasında dəyişir. Bu rəqəmlər Avropa ölkələri ilə müqayisədə dəfələrlə çoxdur.

■ **Mövzu ilə bağlı Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü deputat Vüqar Bayramov isə bildirib ki, kredit faizlərinin aşağı salınması məsələsi uzun müddət müzakirə edilən məsələlərdəndir.** Deputat hesab edir ki, Azərbaycanda istehlak kreditlərinin faizləri daha yüksəkdir: "Bir çox hallarda istehlak kreditləri illik 25-26 faiz təklif edilir. Bu da, təbii ki, həm kredit götürən şəxsin ödəmə qabiliyyətinə, həm də gəlirlərinə təsir göstərir. Çünki bu halda onun xərcləri artır, ailə büdcəsi zərər görür. Vətəndaşın əlində qazancından çox az miqdarda vəsait qalır".

V.Bayramov bildirib ki, bu baxımdan kredit faizlərinin aşağı salınması, daha aşağı faizlə həm istehlak, həm biznes kreditlərinin təklif edilməsi çox vacibdir: "Hazırda kredit portfeli 18 milyard 7 milyon manatdır. Ötən ay kredit portfeli 17 milyard 587 milyon manat olub. Onun 13 milyard 81 milyon manatı milli valyutada, qalan 4 milyard 446 milyon manatı isə xarici valyutada təklif olunub. Baş bankın hesablamalarına görə, ölkə üzrə orta kredit faizi 11.86 faiz, milli valyutada isə 14.28 faizdir. Aydındır ki, Mərkəzi Bank orta kredit faizlərini hesablayan zaman bütün növ kreditləşmə üzrə qiymətləndirmə aparır. Vətəndaşların daha çox istifadə etdiyi istehlak kreditləri üzrə faizlər elan olunan rəsmi orta rəqəmlərdən daha yüksəkdir. Qeyd edək ki, kreditlərin 51.4 faizi, yəni 9 milyard 262 milyon manatı birbaşa ev təsərrüfatlarına yönəldilir"

Parlamentari kredit faizlərinin artmasına səbəb olan faktorlardan da söz açıb: "Biznes kreditlərinin bahalı olması istehsal edilən məhsulların sayının artmasına, həmin məhsulları daha yüksək qiymətlərlə bazara çıxarılmasına səbəb olur. Bu kontekstdə biznes kreditlərinin faiz dərəcələrinin tənzimlənməsi vacib şərtlərdəndir. Azərbaycanda təbii ki, depozitlər üzrə faiz dərəcələri yüksəkdir. Depozit faizlərinin



**Vüqar Bayramov,**
Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü

yüksək olması da kredit faizlərinə təsir göstərən faktorlardandır. Amma bizim monitorinqlər göstərir ki, əsas səbəblərdən biri bank sektorunda rəqabətin zəif olmasıdır".

Deputatın fikrincə, kredit faizlərinin aşağı salınması üçün bank sektorunda rəqabətin gücləməsinə, xüsusən də bu sektorda konservativ siyasətdən mərhələli şəkildə daha liberal siyasətə keçidin təmin olunmasına ehtiyac var: "Bir sıra xarici bankların, xarici kapitalın bank sektoruna gəlməsi rəqabətin güclənməsinə gətirib çıxara bilər ki, bu da kredit faizlərinin aşağı salınması üçün baza formalaşdırar. Eləcə də, Mərkəzi Bank tərəfindən depozit faizləri ilə kredit faizləri arasında müəyyən asılılığın tövsiyə olunması da mümkündür. Təbii ki, söhbət inzibati müdaxilədən getmir. Ancaq nəzərə almalıyıq ki, depozitlər kreditlərin verilməsi üçün əsas maliyyə mənbələrindən biridir.

Buna görə də, onlar arasında müəyyən balansın gözlənilməsi lazımdır ki, kreditlər yüksək faizlə təklif olunmasın". Parlamentari onu da qeyd edib ki, Bakıya nəzərən kredit faizləri rayonlarda daha yüksəkdir: "Regionlarda yaşayan vətəndaşlarımız və iş adamlarımız daha yüksək faizlə kredit götürməyə məcbur qalırlar. Bu kontekstdən yanaşsaq qeyd etdiyimiz istiqamətlərdə tədbirlərin və bank sektorunda rəqabətin güclənməsinə xidmət edən islahatların genişləndirilməsi kredit faizlərinin aşağı düşməsinə gətirib çıxara bilər".

✍ *Banu*

# Dərsliklərdəki səhvlər

***Son günlər sosial şəbəkələrdə tez-tez dərsliklərdəki səhvlərlə bağlı paylaşımlara şahid oluruq. Məktəblilər üçün nəzərdə tutulan bu tədris vasitələrində həlli olmayan məsələlərin sayı durmadan artır. Beləcə həll edilə bilməyən məsələlər, həlli tapılmayan dərslik çapı problemindən qaynaqlanır. Bəs görəsən, dərsliklər çapa verilməzdən öncə onların yoxlanışını kimlər həyata keçirir? Bu yoxlanış neçə müddət vaxt aparır? Səhvlərin aradan qaldırılması üçün növbəti tədris ilindən hansı yeniliklər tətbiq edilə bilər? Hafta.az-ın əməkdaşı məsələni ekspertlərlə müzakirə etdi.***



## Problem



**Elçin Əfəndi,**
təhsil eksperti

■ **İlk müsahibimiz təhsil eksperti Elçin Əfəndi oldu. Onun sözlərinə görə, dərsliklər indiyə qədər müvafiq tender vasitəsilə elan edilərək, qalib gələn şəxs və yaxud nəşriyyat tərəfindən nazirliyə satılırdı. Daha sonra nazirlik dərslik olaraq həmin kitabları nəşrlərə təqdim edirdi. Bu proses artıq dəyişdirilməlidir:**

"Fikrimcə, bu anlayışı aradan qaldırmalıyıq. Təhsil İnstitutu və müvafiq müəlliflər tərəfindən keyfiyyətli dərs kitabları yazılmalıdır. Təbii ki, bu işə Təhsil Nazirliyi ciddi nəzarət etməlidir. İstənilən halda dərsliklərdə səhvlərin olması bir şagirdə mənfi təsir göstərmir. Bu, eyni ildə 100-200 min şagirdə təsir etmiş olur. Onlara yanlış informasiya verilmiş olur. Ona görə də dərs kitabı hazırlayan müəllif, redaktorlar, korrektorlar diqqətli olmalıdırlar. Təbii ki, bir dərslik heç də asan ərsəyə gəlmir. Bunun üçün kifayət qədər çox - 1-2 il vaxt tələb olunur. Dərslik hazır olandan sonra nəşrə buraxılır. Təkrar nəşrlər zamanı səhvlər aradan qaldırılır. Buna baxmayaraq, biz dərslik hazırlayanda səhvlərin olmamasına maksimum dərəcədə çalışmalıyıq".

## Necə aradan qaldırılmalı?

Ekspert onu da vurğulayır ki, neqativ halların aradan qaldırılması üçün dərsliklərin hazırlanması ilə bağlı xüsusi komissiya olmalıdır:

"Komissiyanın tərkibində peşəkar mütəxəssislər, pedaqoqlar yer almalıdır. Mükəmməl dərs kitabları hazırlayan zaman təkcə bu ili deyil, gələcək bir neçə ili də nəzərə almalıyıq. Valideyn hər il dərslik almalı deyil. Dərsliklərin hazırlanması zamanı şagirdlərin yaşı və psixologiyası nəzərə alınmalıdır. Bunun üçün müvafiq kriteriyalar müəyyən olunmalıdır".



**Kamran Əsədov,**
təhsil eksperti

■ **Təhsil eksperti Kamran Əsədov dərsliklərlə bağlı problemlərdən danışarkən digər məqama - köhnə üsulla çap olunan kitab məsələsinə diqqət çəkdi.** Onun sözlərinə görə, orta məktəblər üçün kitab çapı işində Azərbaycan hələ ki, dünya ilə ayaqlaşa bilmir. Kitab sənayesi hər gün inkişaf edir, hər gün yeni avadanlıq istehsal olunur, amma bizdə nəşriyyatlar köhnə avadanlıqlardan istifadə edərək bu işi həyata keçirirlər:

> *"Biz dərslik hazırlayanda səhvlərin olmamasına maksimum dərəcədə çalışmalıyıq*

> *Orta məktəblər üçün kitab çapı işində Azərbaycan hələ ki, dünya ilə ayaqlaşa bilmir*

"Məhz kağız, rəng və digər keyfiyyətlərinə görə Azərbaycandakı orta məktəb kitablarlı ilə Avropada çap olan kitablar arasında ciddi keyfiyyət fərqi var. Bu gün tədris proqramı kifayət qədər ağırdır, zaman inkişaf keçdikcə, illər ötdükcə bu yüngülləşmir. Biz isə tədris müddətini azaltmaqla dərs yükünü artırırıq. Yəni tədris materiallarının sadələşdirilməsi əvəzinə, müddətin uzadılması ilə onun sadələşdirilməsi haqqında düşünülür ki, həyata keçirilən tədbirlər nəticəsində proqram isə daha çox ağırlaşır. Hesab edirəm, bu gün dərsliklər şagirdlər üçün deyil, müəllimlər üçün yazılır. Bu kitabları müəllimlər özləri güclə qavrayıb başa düşür, o ki qaldı şagirdlər ola...".

✍ *Banu*

## HƏFTƏ REYTİNQ

### Həftənin NAZİRİ



Latviya Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriks Şuşaya səfər edib. Bununla da Pabriks türkiyəli həmkarı Hulusi Akardan sonra Azərbaycanın mədəniyyət paytaxtına səfər edən ikinci xarici ölkənin müdafiə naziri olub. Artis Pabrikis Şuşada latviyalı rəssamların atlara həsr olunan sərgisinə qatılıb.

### Həftənin XƏBƏRDARLIĞI



"Microsoft"un yaradıcısı Bill Qeyts pandemiya və Ümumdünya Səhiyyə Təşkilatı ilə bağlı açıqlamalar verib. O qeyd edib ki,indiki ÜST fondu pandemiya məsələsində qətiyyən ciddi deyil. "Biz hələ də bu pandemiyanın daha yoluxucu və daha ölümcül variantının yaranması riski altındayıq. Mənə elə gəlir ki, biz bu faciəni görə bilmirik və dünya adına səy göstərmirik".

### Həftənin GƏLİNİ



Ukraynadakı müharibədə minaya düşərək ayaqlarını itirən 23 yaşlı tibb bacısı sevgilisi ilə ailə həyatı qurub.

23 yaşlı Oksana möcüzə nəticəsində sağ qalıb. O, hazırda Lvovda reabilitasiyadan keçir. Lakin gənc qadın xoşbəxtliyini təxirə salmamaq qərarına gəlib və həyatını palatada Viktorla birləşdirib.

### Həftənin ÇEMPİONU



Futbol üzrə Azərbaycan Premyer Liqasında 2021/2022-ci il mövsümünün qalibi müəyyənləşib. Bu, 25-ci turda reallaşıb. Belə ki, cari turda "Qarabağ" öz meydanında "Sabah" bərabərə (1:1) qalaraq vaxtından əvvəl çempionluğunu rəsmiləşdirib. Bu, Ağdam təmsilçisinin sayca 9-cu çempionluğudur.

### Həftənin İTKİSİ



"AliExpress"in sahibi olan texnologiya nəhəng "Alibaba"nın səhmləri kəskin şəkildə ucuzlaşıb. Buna səbəb şirkətin qurucusu Cek Ma ilə bağlı yayılan xəbərlər olub. Belə ki, iş adamının Çin Təhlükəsizlik Xidməti tərəfindən saxlanıldığı və ona qarşı müəyyən məhdudiyyətlərin qoyulduğu bildirlib. Sonradan məlum olub ki, söhbət digər şəxsdən gedib və onunla biznesmenin soyadı arasında yalnız heroqlif fərqi olub. Bu yanlışlıq ucbatından "Alibaba"nın səhmləri 9,4% ucuzlaşaraq şirkətin kapitallaşmasının 26 milyard dollar azalmasına səbəb olub.

### Həftənin DƏYİŞİMİ



Azərbaycanlı xanımla evlənən Van Dammın oğlu Kristofer Van Varenberq yeni imici ilə diqqət çəkib. Kristoferin sosial mediada izləyiciləri ilə bölüşdüyü son fotolarda saçlarını sarı rəngə boyadığı görünür. Qeyd edək ki, Kris və azərbaycanlı pianoçu Suada Hacızadə ötən il nikah bağlayıb. Suada Hacızadə Prezident mükafatçısıdır, yeddi dəfə beynəlxalq musiqi müsabiqəsinin laureatı olub.

✍ *Azad Əliyev*

# "Nar" və Könüllü arasında memorandum imzalandı ®

**"Nar" və Azərbaycan Könüllü Təşkilatları İttifaqı (AKTİ) arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandumu "Nar" tərəfindən şirkətin Baş İcraçı Direktoru Qunnar Panke, AKTİ tərəfindən isə ittifaqın sədri Yusif Vəliyev imzalayıb.**




Memorandum çərçivəsində "Nar" və AKTİ tərəfindən Azərbaycanda könüllülük mədəniyyətinin təşviqinə dəstək məqsədilə ortaq tədbir və layihələrin həyata keçirilməsi, eləcə də qarşılıqlı təcrübə mübadiləsinin aparılması nəzərdə tutulur.

"Ölkənin ən gənc mobil operatoru olaraq könüllülük işinin təşviqinə dəstəyimizi ifadə etməkdən məmnunluq duyuram. Əminəm ki, məhz könüllülərin tələblərinə uyğun şəkildə hazırladığımız xüsusi tarif onlar arasında daha rahat ünsiyyəti təmin etməklə təşkilatın ümumi işinə öz töhfəsini verəcək", - deyə "Nar"ın Baş İcraçı Direktoru Qunnar Panke bildirib. İttifaqın sədri Yusif Vəliyev: "22 Könüllü təşkilatının üzv olduğu Azərbaycan Könüllü Təşkilatları İttifaqı olaraq "Nar" mobil operatoru ilə əməkdaşlığa başlamaqdan məmnunuq. İnanırıq ki, bu əməkdaşlıq Azərbaycan könüllüləri üçün yeni imkanlar yaradacaq, könüllülüyün inkişafına öz töhvəsini verəcək".

Qeyd edək ki, Azərbaycan könüllüləri arasında effektiv koordinasiyanın təmin edilməsi, əlaqələrin asanlaşdırılması məqsədilə, "Nar"ın xüsusi yaratdığı tarif əsasında könüllülər arasında mobil zənglər pulsuz olacaq.

# Astaranın "Eyfel"i

***Astara rayonunun Ərçivan qəsəbəsində yerli sakinlərin Astaranın "Eyfel"i adlandırdıqları teleqüllə mövcuddur. Qüllə 1981-ci ildə 243.9 m hündürlüyündə inşa olunmuşdur.***



Məlumata görə, sovet dövründə tez-tez İran telekanalları ilə yerli telekanallar qarışdığından çıxış yolu kimi məhz bu TV qülləsi tikilib.

Teleqüllə FM-radio və televiziya yayımının ötürülməsi məqsədilə, həm də mobil təkrarlayıcı kimi istifadə olunur. Bəs görəsən, qülləni Astaranın simvoluna çevirmək olmazmı?

■ **Elə bu fikri əsas tutaraq məsələ ilə bağlı suallarımızı turizm üzrə ekspert Ceyhun Aşurova ünvanladıq. Ekspertin sözlərinə görə, qülləni turizm nöqteyinəzərdən qiymətləndirmək olar.** Bu kimi bütün görməli yerlər, həmçinin tarixi əhəmiyyət daşıyan məkanlar, abidələr həm yerli, həm də xarici turistlərin böyük marağına səbəb olur:

"Faktları və elementləri yerli turizm müəssisələrinə təqdim etməklə, qüllə yerləşən ərazini marşrut üzərinə salmaq olar. Onu da vurğulayım, qülləyə Astaranın "Eyfel"i deyilirsə, deməli, artıq burada təbii yollarla müəyyən işlər görülüb. Yerdə qalır, elə bu adla qüllənin gözəl təqdimatını həyata keçirmək. Beləcə, məkan insanlarda maraq oyadacaq. Onunla şəkil çəkdirənlərin sayı artacaq. 2019-cu il Ümumdünya Turizm Təşkilatının hesabatında bildirilirdi ki, turistləri təşviq edən əsas faktorlardan biri də sosial mediadır.

Bu baxımdan sosial medianın gücü danılmazdır. Elə bu güclə, gələn ziyarətçilərin sayını artırmaq mümkündür. Belə cəlbedici abidələr, binalar turistik məqsədlərlə istifadə edilməlidir".

✍ *Banu*

## ELAN

**17 iyun 2022-ci il tarixdə Yardımlı-Şərab ASC səhmdarlarının ümumi yığıncağı keçriləcəkdir.**

## GÜNÜN FOTOSU



**Gəncə terrorunda valideynlərini itirən Sevilin nişanı oldu**

# "Səhiyyə sistemində yenilik

**İlqar Hüseynli,**
səhiyyə sahəsi üzrə ekspert

Tibb işçilərinin əməkhaqqı digər sahələrdə çalışanların əmək haqqı ilə müqayisədə aşağı idi.

▸▸ Səh. 6

## STATİSTİKA



■ **Ötən ay dövlət sərhədində narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 186 kq 679 qram narkotik vasitəyə və 8827 ədəd psixotrop həbə bənzər maddələr aşkarlanaraq götürülüb.**

Qaçaqmalçılığa qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri təqribən 4 milyon 584 min 557 manat olan qaçaqmal saxlanılıb.



▸▸ Səh. 7

# Dünya - yeni epidemiya ilə üz-üzə